## "Sülh olacaq, Rusiya heç bir təxribata risk etməyəcək"

Mehman Əliyev: "Moskva yaxşı alver etməyi bacarır. Əslində, Rusiyanın özü Zəngəzur dəhlizində maraqlıdır"



**Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın ABŞ-də, Vaşinqtonda görüşü gözlənilir.**

Yayılan məlumata görə, D.Tramp Ermənistan Baş naziri və Azərbaycan Prezidenti ilə ayrı-ayrılıqda görüşəndən sonra liderlərin sülh danışıqları başlayacaq. Həmin gün dövlət rəhbərlərinin birgə bəyanatı da gözlənilir. Vaşinqtonda Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı memorandumun imzalanacağı da deyilir.

(səh.5)



## Bir kod, bir ömürdür

Bir ixtisas seçimi gəncin taleyini dəyişə bilər

**11 avqustdan ixtisas seçimi başlayır. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025-ci il avqustun 11-dən 19-dək olan müddətdə aparılacaq.**

Kağız üzərində bu proses sadəcə bir neçə kodun düzgün sıralanmasından ibarət kimi görünsə də, əslində bu, hər bir gəncin və dolayısıyla ölkənin gələcəyinə verilən ən mühüm strateji qərarlardan biridir.

(səh.7)

№ 139 (6380) 2025-ci il

Qiyməti 50 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 avqust 2025-ci il (cümə)



# Əlvida, istilər!

Havanın temperaturu 3-5 dərəcə aşağı enəcək

**Azərbaycan ərazisində isti hava dalğası zəifləyir.**

Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, uzun müddət davam edən isti hava dalğasından sonra avqustun 8-i axşamdan şimal-qərb küləyinin arabir güclənəcəyi və ayın 12-dək davam edəcəyi gözlənilir.

Bu həftənin sonu və növbəti həftənin ilk günlərində havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

Küləyin güclənməsi ilə əlaqədar Abşeron çimərliklərində istirahət edən əhalinin ehtiyatlı olması tövsiyə olunur. Dəniz suyunun temperaturu ayın 9-10-11-də 27-29 dərəcə isti olacaq.

*Qeyd edək ki, beynəlxalq təcrübədə havanın gündəlik maksimum temperaturunun orta aylıq maksimum temperaturdan 5 dərəcə və daha yüksək olduğu müddət 5 gün və daha çox davam edərsə, bu meteoroloji hadisə isti hava dalğası adlanır.*




## ABŞ Zəngəzur dəhlizinə gəlir

Paşinyan Vaşinqtona "yaşıl işıq" yandırıb

**"Reuters" məlumat yayıb ki, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Ağ Evdə Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycanın Prezidenti İlham Əliyevin iştirakı ilə keçiriləcək görüş sülh çərçivə sənədinin imzalanması ilə yekunlaşacaq.**

Məlumata görə, sənəddə Cənubi Qafqazda yerləşən və strateji əhəmiyyət daşıyan tranzit dəhlizi (Zəngəzur dəhlizi - red.) üzrə xüsusi inkişaf hüquqlarının ABŞ-yə verilməsi də nəzərdə tutulur. Dəhliz "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (Trump Route for International Peace and Prosperity - TRIPP) adlandırılacaq.

(səh.2)

# Bu gün ABŞ-də üçtərəfli görüşdü

## Bu sülh uzunmüddətli olacaq



## Azərbaycan və Ermənistan sülh sazişini ikitərəfli qaydada, tamamilə neytral məkanda imzalaya bilərlər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib.**

Dövlətimizin başçısını "Joint Base Andrews" hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın Vaşinqtonda baş tutacaq üçtərəfli görüşü dünya mediasının da diqqət mərkəzindədir. Müxtəlif nüfuzlu beynəlxalq media orqanları bu barədə fərqli təhlil və məlumatlar təqdim edirlər. Modern.az xarici mediada görüş barədə dərc edilən xəbər-məqalələri araşdırıb. Məsələn, BBC xatırladıb ki, 2024-cü ilin iyulunda Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ilk dəfə təkbətək formatda görüş keçiriblər.

(səh.3)




## Aqşin Yenisey ermənilərə və Anna Akopyana mesaj göndərdi

"Problem ermənilərin rasional yaddaşlarında deyil, emosional yaddaşlarındadır"

**Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan maraqlı açıqlaması ilə gündəmə gəlib.**

Akopyan yaxın vaxtlarda oxumağı planlaşdırdığı kitabın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müəllifi olduğu "Daha ədalətli dünya mümkündür" ("A Fairer World is Possible") adlı əsər olduğunu deyib: "Dostlarımızı, qonşularımızı daha yaxşı tanımaq, anlamaq, köhnə problemlərimizi uşaqların çiyninə atmamaq, düşüncəni yaxşılığa doğru dəyişmək, həyat keyfiyyətini yaxşılaşdırmaq, sağlam cəmiyyət formalaşdırmaq, güclü dövlətə sahib olmaq, yeni vətəni dirçəltmək, özünə inam qazanmaq üçün təhsil dəbdədir".

(səh.4)



## "Təzə Pir" məscidi ətrafındakı tarixi məhəllə yenidən qurulacaq

**"Təzə Pir" məscidi ətrafındakı və Baş plan-la ictimai-işgüzar zona kimi müəyyən edilmiş ərazidə tarixi məhəllənin də Bakının özünəməxsus şəhərsalma və memarlıq nümunəsi kimi ətraf mühitə və yeni şəhərsalma strukturuna inteqrasiyası üçün müasir standartlara uyğun abadlaşdırılması və yenidən qurulması planlaşdırılır.**

Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat katibi Ramiz İdrisoğlu deyib.

O bildirib ki, layihə dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət (memarlıq) abidələrinin mütləq şəkildə saxlanılaraq qorunmasını və abidə olmayan, lakin tarixi dəyəri olan bir sıra digər binaların saxlanılaraq məhəllənin ümumi konsepsiyasına uyğunlaşdırılmasını nəzərdə tutur.

# Gəl, gəl, məktəb avtobusları!

## Bir avtobus min problemi həll edə bilər




**Bu sistemin tətbiqi təhsilin gələcəyini dəyişəcək**

**Məktəb avtobuslarının Bakı şəhərində müəyyən məktəblərdə pilot olaraq tətbiqi ilə bağlı ilkin layihə hazırlanır. Elm və Təhsil Nazirliyindən verilən məlumatda bildirilib ki, Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na əsasən ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrində təhsil alanların rahat və təhlükəsiz daşınması məqsədilə "məktəb avtobusları"ndan istifadənin təşkili nəzərdə tutulur.**

Məktəb avtobuslarının Bakı şəhərində müəyyən məktəblərdə pilot olaraq tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən ilkin layihə hazırlanır".

(səh.4)




## Ələ keçdilər

Avtoyuma məntəqəsindən maşın qaçıran şəxslər saxlanılıblar

**Paytaxtın Nizami rayonunda sürücü polisə müraciət edərək yumaq məqsədilə avtoyuma məntəqəsinə verdiyi "Hyundai" markalı avtomobilinin naməlum şəxslər tərəfindən qaçırıldığını bildirib.**

Bu barədə DİN-in Mətbuat xidmətindən məlumat verilib. Nizami Rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbiri ilə qabaqcadan əlbir olaraq cinayət əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 25 yaşlı Elşən Hüseynov və 23 yaşlı Səyyad Mehdizadə saxlanılıblar.

Araşdırmalar zamanı məlum olub ki, avtoyuma məntəqəsində çalışan E.Hüseynov və S.Mehdizadə yumaq üçün onlara həvalə olunan nəqliyyat vasitəsini qaçıraraq əvvəlcə hissələrə ayırıb satmaqla "izi" itirməyə çalışıblar. Bu planları baş tutmadıqda isə avtomobili yol kənarında tərk edərək ərazidən uzaqlaşıblar. Nəqliyyat vasitəsi polis əməkdaşları tərəfindən aşkarlanıb.




# ABŞ Zəngəzur dəhlizinə gəlir

## Paşinyan Vaşinqtona ”yaşıl işıq” yandırıb

**”Reuters” məlumat yayıb ki, ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə Ağ Evdə Ermənistanın Baş naziri Nikol Paşinyan və Azərbaycanın Prezidenti İlham Əliyevin iştirakı ilə keçiriləcək görüş sülh çərçivə sənədinin imzalanması ilə yekunlaşacaq.**

Məlumata görə, sənəddə Cənubi Qafqazda yerləşən və strateji əhəmiyyət daşıyan tranzit dəhlizi (Zəngəzur dəhlizi - red.) üzrə xüsusi inkişaf hüquqlarının ABŞ-yə verilməsi də nəzərdə tutulur. Dəhliz ”Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” (Trump Route for International Peace and Prosperity - TRIPP) adlandırılacaq. Dəhliz çərçivəsində Ermənistan ABŞ-yə uzunmüddətli infrastruktur və idarəetmə hüquqları verməyə razılaşıb. ABŞ bu dəhlizi kommersiya əsaslı subpodratçılara icarəyə verəcək. Erməni politoloq Stepan Danielyan deyib ki, ABŞ ordusu Zəngəzur dəhlizinə nəzarət üçün ”özəl təhlükəsizlik şirkəti” şəklində Ermənistana daxil olsa, ölkə həm Amerika, həm də Rusiya hərbçilərinin eyni vaxtda ola biləcəyi nadir yerlərdən biri olacaq. Ekspert bildirib ki, əslində, Ermənistan Suriyadan sonra oxşar vəziyyətin yarana biləcəyi ikinci yerə çevrilir.

### Dəhliz razılaşdırılıb, indi sıra Vaşinqtonun təhlükəsizlik planındadır

**Politoloq Natiq Miri bildirib ki, bu istiqamətdə hələ də qeyri-müəyyənliklər qalır. Analitik qeyd edib ki, rəsmi İrəvan bu təklifə müəyyən qədər razılıq verib:** ”Ermənistan öz suveren hüquqlarını heç kimə təslim etməyəcəyini bildirsə də, prinsipial olaraq ABŞ-nin kommunikasiya sisteminə nəzarət etməsinə və təhlükəsizliyi təmin etməsinə razıdır. Zəngəzur dəhlizinin açılması ilə bağlı prinsipial razılaşma olsa da, təhlükəsizlik və ABŞ şirkətinin iştirakı məsələsində bəzi suallar aktuallığını qoruyur. Görünən budur ki, hazırda bu məsələlərin üzərində iş aparılır. Düşünürəm ki, məhz bu məsələlərlə bağlı Ermənistanın məsləhətləşməyə ehtiyacı var. Ancaq nəqliyyat-kommunikasiya sisteminin açılması prinsipial olaraq razılaşdırıldığı üçün Zəngəzur dəhlizinin reallaşması uzaq deyil. Bu istiqamətdə artıq konkret praktiki addımlar da atılır. Hətta Əbu-Dabi görüşündən əvvəl də Nikol Paşinyanın Zəngəzur bölgəsinə bir neçə səfəri olub və bu səfərlər çərçivəsində müəyyən praktiki işlər görülüb. Hazırda əsasən yüklərin daşınması və dəmir yolu xəttinin açılması məsələsi müzakirə olunur. Əgər konkret siyasi razılıq əldə olunarsa, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması uzaqda deyil”.

**İsmayıl**

# “Əsir götürüldükdən sonra güllələndim”

## Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində zərər çəkmiş azərbaycanlı danışdı



**Avqustun 7-də Bakı Hərbi Məhkəməsində məhkəmə prosesində ifadə verən zərərçəkmiş şəxs Şərif Əliyev ifadəsində 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı, noyabr ayında Xocavənd istiqamətində yaralanaraq əsir götürüldüyünü bildirib.**

O, əsirlikdə döyüldüyünü, yaraları sıxılmaqla və başqa üsullarla işgəncələrə məruz qaldığını deyib.

Zərərçəkmiş şəxs bildirib ki, əsir götürüldükdən sonra başqa yerə, - sonradan öyrəndiyinə görə İrəvan şəhərinə, - aparılıb. Qeyd edib ki, əsir düşməzdən əvvəl döş qəfəsindən və hər iki ayağından yaralanıbmış. Əsir götürüldükdən sonra erməni hərbçilər rus və erməni dillərində sözlər deyərək ondan təkrarlamasını istəyiblər. Həmin ifadələri təkrarlamadığına görə sağ ayağının pəncə nahiyəsindən güllələnib.

Ş.Əliyev təqsirləndirilən şəxs David Babayanın suallarına cavabında bildirib ki, əsir götürülməzdən əvvəl 4 nəfər hərbçi yoldaşı şəhid olub, özü və daha bir nəfər hərbçi yoldaşı yaralanıb. Ağır vəziyyətdə yaralı olan həmin azərbaycanlı hərbçi Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən ”yoxlama vuruşu” ilə qətlə yetirilib. Ş.Əliyev isə əsir götürülüb.

O, təqsirləndirilən şəxs Davit İşxanyanın suallarına cavabında Azərbaycana qaytarıldıqdan sonra Gəncədə klinikada əməliyyat olunduğunu söyləyib.

2020-ci il dekabrın 15-də Azərbaycana qaytarılıb.

*Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.*

# Qazaxıstan üçün ciddi test

## Rəsmi Bakı artıq nə baş verdiyini dəqiq bilir




### Təqdim edəcəyi istintaq rəyi Qazaxıstanın həm regiondakı siyasi mövqeyini, həm də Azərbaycana qarşı mövcud münasibətini aydın şəkildə ortaya qoyacaq

**Bir neçə aydan sonra Qazaxıstan hakimiyyəti Azərbaycan Hava Yollarına (AZAL) məxsus təyyarənin Aktau hava limanı yaxınlığında qəzaya uğraması ilə bağlı yekun hesabat hazırlayacaq.**

Bu barədə Qazaxıstan baş nazirinin müavini Kanat Bozumbayev mətbuat konfransında bildirib.

Qazaxıstan istintaq orqanlarının təqdim edəcəyi rəy yalnız hadisənin hüquqi və texniki tərəflərinə deyil, həm də ölkənin regional aktor kimi obyektivliyinə və müstəqil mövqeyinə işıq salacaq. Bu baxımdan qarşıdan gələn istintaq nəticəsi həm Azərbaycan üçün, həm də bütövlükdə region üçün ciddi əhəmiyyət kəsb edir.

**Politoloq Elçin Xalidbəyli mövzu ilə bağlı ”Şərq”ə açıqlama verib:**

”Qazaxıstan istintaq qurumunun Rusiya səmasında vurulmuş Azərbaycan sərnişin təyyarəsi ilə bağlı açıqlayacağı rəy xüsusi önəm daşıyır. Bu rəy Qazaxıstanın Azərbaycana münasibətdə nə dərəcədə ədalətli və səmimi olduğunu, eyni zamanda Rusiyadan nə səviyyədə asılı və ya çəkingən olub-olmadığını ortaya qoyacaq. Rəydə təyyarənin vurulub-vurulmadığı, hadisənin hansı şəraitdə baş verdiyi, xüsusilə də Rusiyanın təyyarəyə qarşı hərbi müdaxilə edib-etmədiyi məsələləri aydın şəkildə əks olunmalıdır. Əslində, Azərbaycan üçün vəziyyət tamamilə aydındır. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, təyyarəni Rusiya hava hücumundan müdafiə qüvvələri Rusiya hava məkanında vurub. Bu iddianı təsdiqləyən bir çox sübutlar mövcuddur. Hətta bir müddət əvvəl təyyarənin vurulmasında birbaşa iştirak etmiş rus zabitlərinin adları belə açıqlanıb.

Azərbaycan hadisənin bütün detalları ilə bağlı məlumatlıdır və Rusiyanın bu məsələdə Bakı rəsmi qurumlarını yanıltması mümkün deyil. Bu baxımdan Qazaxıstanın məsuliyyəti xüsusilə böyükdür. Onların təqdim edəcəyi istintaq rəyi Qazaxıstanın həm regiondakı siyasi mövqeyini, həm də Azərbaycana qarşı mövcud münasibətini aydın şəkildə ortaya qoyacaq”.

**Ekspert Qazaxıstanın Rusiyanın maraqlarına uyğun, qeyri-obyektiv bir rəy açıqladığı halda bunun Azərbaycan-Qazaxıstan münasibətlərinə mənfi təsir göstərə biləcəyini söyləyib:**

”Əksinə, əgər Qazaxıstan siyasi cəsarət göstərərək obyektiv və real faktlara əsaslanan bir rəy təqdim edərsə, o zaman Rusiyanın Qazaxıstana təzyiq göstərməsi istisna deyil. Hər iki halda bu, Qazaxıstan üçün ciddi bir testdir.

Lakin istintaq rəyindən asılı olmayaraq rəsmi Bakı artıq nə baş verdiyini dəqiq bilir. Prezident İlham Əliyev bir müddət əvvəl bəyan etdi ki, Azərbaycan bu məsələ ilə bağlı beynəlxalq məhkəməyə müraciət etməyi planlaşdırır. Bu isə Azərbaycanın əlində təkzibolunmaz sübutların olduğunu göstərir. Rəsmi Bakı bu sübutları beynəlxalq hüquq müstəvisində təqdim edərək Rusiyanın günahkar olduğunu sübut etmək niyyətindədir”.

**Banuçiçək Kalbalıyeva**

# Kreml hələ də sülh masasından qaçır

## 12 günlük zaman da növbəti həftə bitəcək

**Rusiya Prezidenti Vladimir Putinlə ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoff arasında görüş 3 saat davam edib. Rusiya Prezidentinin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov deyib ki, danışıqlar faydalı və konstruktiv keçib.**

O deyib ki, müzakirələrin əsasını Ukrayna böhranı, habelə Rusiya ilə ABŞ arasındakı strateji əməkdaşlığın mümkün inkişaf perspektivləri təşkil edib. Uşakov əlavə edib ki, Rusiya Prezidenti Vladimir Putin və ABŞ lideri Donald Tramp arasında görüşün yeri razılaşdırılıb. Uşakovun sözlərinə görə, Amerika tərəfinin təklifi ilə yaxın günlərdə Vladimir Putin və Donald Trampın görüşünün keçirilməsi razılaşdırılıb. O əlavə edib ki, Putin və Tramp arasında görüş gələn həftə baş tuta bilər. Daha sonra açıqlama verən Putin deyib ki, BƏƏ Rusiya və ABŞ liderləri arasında görüş üçün münasib yerlərdən biridir. Putinin sözlərinə görə, Rusiyanın bir çox dostları var ki, onunla Tramp arasında görüş təşkil etməyə hazırdır.

ABŞ-nin Prezidenti Donald Tramp da bildirib ki, Stiven Uitkoff Moskvada Rusiya Prezidenti Vladimir Putinlə çox məhsuldar görüş keçirib. Onun sözlərinə görə, görüşdə xeyli irəliləyiş əldə olunub: ”Bundan sonra bəzi avropalı müttəfiqlərimizə məlumat verdim. Hamı razıdır ki, bu müharibə bitməlidir. Biz yaxın günlərdə və həftələrdə buna çalışacağıq. Ukrayna Prezidenti Volodimir Zelenski deyib ki, Stiven Uitkoffla danışıqlar zamanı Rusiya atəşkəs əldə etməyə daha çox meyilli olduğunu göstərib. Zelenski Trampla telefon danışığı barədə məlumat verərkən qeyd edib: ”Biz Moskvada deyilənləri müzakirə etdik. Belə görünür ki, Rusiya indi atəşkəsə daha çox meyillidir. Onlara təzyiqlər işləyir. Əsas odur ki, bizi aldatmasınlar”. Qeyd edək ki, Rusiyanın Ukraynaya ”hava atəşkəsi” təklifini edəcəyi xəbəri yayılıb. Ukrayna Quru Qoşunları Ehtiyatçılar Şurasının rəhbəri İvan Timoçko bildirib ki, belə bir atəşkəs Ukraynaya çoxlu qəm-qüssə və problemlər gətirəcək.

Onun sözlərinə görə, əgər cəbhədə döyüş əməliyyatları dayandırılmasa, belə bir atəşkəs zamanı ruslar cəbhə xəttinə yaxın böyük sayda qoşun və texnika toplaya biləcəklər. ”Teleqraf”ın redaktoru Kon Koflin isə deyib ki, əgər ABŞ Prezidenti Donald Tramp sərt sanksiyalar və Ukraynaya silah tədarükünü artıran kombinasiyanı seçsə, Rusiya lideri Vladimir Putinin Ukraynaya qarşı müharibəni dayandırmaqdan başqa yolu qalmayacaq. O qeyd edib ki, müharibə zamanı bəlli olub ki, Putin ümidsizcəsinə istədiyi qələbəni heç vaxt əldə etməyəcək. K.Koflin vurğulayıb ki, rus qoşunların döyüş meydanında həlledici irəliləyişə nail ola bilməməsi onların son yay hücumu zamanı xüsusilə aydın olub və bu, onlara böyük itkilərdən başqa heç nə verməyib.



### Ukraynanı silahlandırmaqla Rusiyanı sadəcə gecikdirmək mümkündür

**Politoloq Xəyal Başirov deyib ki, ABŞ Prezidenti Donald Tramp ikinci dəfə hakimiyyətə gəldikdən sonra Rusiya-Ukrayna müharibəsində sülhə nail olmaq istiqamətində kifayət qədər cəhdlər edib. Ekspert bildirib ki, Rusiya-Ukrayna müharibəsi elə bir məcraya, mərhələyə gəlib çıxıb ki, dönüşü olmayan bir vəziyyətdədir:**

”Tərəflərin heç biri, xüsusən Qərbin, o cümlədən ABŞ-nin təzyiq və təsir göstərmək istədiyi Rusiya tərəfi öz hədəfinə çatmaq üçün tələsir. Həmin hədəfə çatanadək Ukrayna ilə masaya oturmaq istəmir. Donald Tramp hakimiyyətə gəldikdən sonra Rusiya rəhbərinin ünvanına xoş sözlər söylədi. Bütün bunlar Moskvanı masaya gətizdirmək üçün yumşaq diplomatiya idi. Amma bu cəhdlər uğursuz nəticələndi. Növbəti mərhələdə D.Tramp digər münaqişələrə münasibətdə olduğu kimi təhdid taktikasına keçdi. ABŞ Prezidenti Rusiyaya əvəlcə 50 gün vaxt verdi. Daha sonra 12 günə dəyişdirildi. Niyə belə oldu? ABŞ-nin hazırkı administrasiyasında, Donald Trampın komandasında təmsil olunan şəxslər açıq şəkildə bəyan etdilər ki, 50 gün sadəcə itirilmiş vaxt olacaq. Çünki Rusiyanın reaksiyasında heç bir dəyişiklik yoxdur. İddia edildi ki, Rusiya bu məsələdə ABŞ-nin çağırışlarına müsbət cavab verməyəcək. Məhz bundan sonra 50 gün müddəti 12 günə endirildi. 12 günlük zaman da növbəti həftə bitəcək. ABŞ və Avropa ölkələri gələn həftə Rusiya-Ukrayna arasında tarixi bir prosesin reallaşacağına ümid edirlər. Əslində isə Rusiya masaya əyləşmək niyyətində deyil. Rusiya rəhbərliyi öz addımları ilə bunu göstərir. Düşünürəm ki, Qərbin sanksiyalarının daha da sərtləşdirilməsi, Rusiya neftini, qazını alan dövlətlərin Moskvaya təzyiqləri fonunda gərginlik səngiyə bilər. Ukraynanı silahlandırmaqla Rusiyanı sadəcə gecikdirmək mümkündür. Amma bu, müharibənin taleyini həll etmir”.

**İsmayıl**

# Bakının Mərkəzi Parkı daha da cazibədar olacaq

**Bakı şəhərinin mərkəzində yerləşən “Sovetski” adlanan ərazi son illərdə böyük dəyişikliklərin şahidi olur. Köhnə evlərin sıx yerləşdiyi bu ərazidə avqustun 7-də söküntü işlərinə start verilib. Ərazidə paytaxtın Mərkəzi Parkının genişləndirilməsinin davamı olaraq yaşıllıqlar salınacaq, daha sağlam, funksional və estetik mühit formalaşdırılacaq.**



Hazırda ərazidəki köhnə və yararsız yaşayış binalarından biri sökülüb. Ərazidəki dəyişikliklər sadəcə görünüşün yenilənməsi deyil, şəhər sakinlərinin gündəlik həyatının keyfiyyətini artırmağa yönəlmiş genişmiqyaslı planların tərkib hissəsidir.

Ərazidə həyata keçirilən yenilənmə ”Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı” çərçivəsində Paytaxtın mərkəzində yaşıl, rahat və sosial-mədəni baxımdan zəngin ictimai məkanların yaradılması istiqamətində atılan əhəmiyyətli addımlardan biridir.

Həyata keçirilən dəyişikliklər, eyni zamanda, şəhərin mərkəzindəki yaşıllıq sahələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsinə xidmət edir. Burada salınacaq yaşıl zolaqlar və ictimai məkanlar Mərkəzi Parkın ərazisinin daha da böyüməsi ilə nəticələnəcək. Bu təşəbbüs Bakının ən iri və çoxfunksiyalı park kompleksinin salınmasına zəmin yaradır. Gələcəkdə park yalnız rekreasiya məkanı deyil, eyni zamanda, sosial, mədəni və ekoloji həyatın mərkəzi olacaq.

Layihə yalnız şəhərin bu ərazisinin yenilənməsini deyil, eyni zamanda, gözəlliyini daha da artırmağı hədəfləyir. Yaradılacaq yeni ictimai məkanlar təkcə istirahət üçün deyil, həm də sosial əlaqələr, mədəni tədbirlər və fəal həyat tərzi üçün əlverişli imkanlar təqdim edəcək. Ərazidə həyata keçirilən layihə paytaxtımızın mənzərəsini daha da cazibədar edəcəkdir.



# Bu gün ABŞ-də üçtərəfli görüşdü

## Bu sülh uzunmüddətli olacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib.**

Dövlətimizin başçısını "Joint Base Andrews" hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

Avqustun 8-də ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanın Vaşinqtonda baş tutacaq üçtərəfli görüşü dünya mediasının da diqqət mərkəzindədir. Müxtəlif nüfuzlu beynəlxalq media orqanları bu barədə fərqli təhlil və məlumatlar təqdim edirlər. Modern.az xarici mediada görüş barədə dərc edilən xəbər-məqalələri araşdırıb. Məsələn, BBC xatırladıb ki, 2024-cü ilin iyulunda Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan ilk dəfə təkbətək formatda görüş keçiriblər. Nəşr vurğulayıb ki, həmin görüş tərəflərin əvvəlki bütün təmaslarının vasitəçilər və ya beynəlxalq sammitlər çərçivəsində baş tutması fonunda mühüm dəyişiklik kimi qiymətləndirilir. BBC Vaşinqton görüşünü bu diplomatik prosesin davamı kimi dəyərləndirib. "Middle East Eye" portalı yazıb ki, Vaşinqton görüşündə tərəflər sadəcə "niyyət protokolu" imzalaya bilər. Bir sıra KİV-lərdə Azərbaycan və Ermənistan liderləri arasında sülhün çərçivə sazişi, memorandumun imzalanacağı, sülh sənədinin paraflanacağı da iddia olunur. Ümumilikdə, Vaşinqton

**Azərbaycan və Ermənistan sülh sazişini ikitərəfli qaydada, tamamilə neytral məkanda imzalaya bilərlər**

görüşündən gözləntilər olsa da, tərəflərin sadəcə qarşılıqlı öhdəlikləri əks etdirən "niyyət sənədi" ilə kifayətlənə biləcəyi də vurğulanır.

**Millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan və Ermənistan liderləri ABŞ-yə sülh yolunda mühüm bir mərhələni - Əbu-Dabi mərhələsini arxada qoyaraq gedirlər. Deputatın sözlərinə görə, bu, öz-özlüyündə nəticə etibarı ilə ABŞ-də sülhün əldə olunması ilə bağlı ortaq bəyanat vermək üçün yetərlidir:**

"Sülhün bütün maddələrinin razılaşdırılması ilə bağlı, yəni hazırkı mərhələdə olan layihənin bütün bəndlərinin razılaşdırılması, hətta paraflanması ilə bağlı hər iki tərəfdən müəyyən fikirlər səsləndirilib. Ona görə mümkündür ki, Vaşinqton görüşündə irəliyə doğru addım atılsın. Ancaq bunun hansı formada olacağı başqa məsələdir. Düşünürəm ki, Azərbaycan və Ermənistan sülh sazişini ikitərəfli qaydada, tamamilə neytral məkanda imzalaya bilərlər. Amma ABŞ-də ortaq mövqe bəyan edilə bilər. Ermənistan regional aktorlara güvənmir. İrəvan dəfələrlə bəyan edib ki, sülh üçün təminatçı axtarır. Belə çıxır ki, Ermənistan regionda sülhün təminatçısı kimi ABŞ-ni görür. Azərbaycan isə regionda sülhün təminatçısı kimi öz gücünə, iradəsinə arxalanır. Əlbəttə, nəzərə almaq lazımdır ki, ABŞ dünya siyasətini təyin edən güc mərkəzlərindən biri, yaxud birincisidir. O zaman Azərbaycanın maraqları kontekstində də tamamilə məntiqlidir ki, belə bir bəyanat ABŞ-də verilsin".

**Parlament üzvü vurğulayıb ki, ABŞ-Ermənistan və ABŞ-Azərbaycan liderlərinin ikitərəfli görüşlərinin ümumi bəyanatdan əvvəl, ya sonra baş tutacağı məsələsi əhəmiyyətlidir:**

"Əgər ortaq bəyanatdan sonra keçiriləcəksə, daha yeni perspektivlər, yeni reallıqlar müzakirə oluna bilər. Azərbaycan-ABŞ münasibətləri yüksək səviyyədədir. Azərbaycan Prezidenti Şuşada çıxış edərkən bunu bəyan etdi. ABŞ Prezidenti D.Tramp Azərbaycan dövlət başçısının Qlobal Media Forumunda səsləndirdiyi fikirləri öz rəsmi "X" səhifəsində paylaşdı. Bu, iki ölkə arasında münasibətlərin hansı səviyyədə olmasından xəbər verir. Eyni zamanda ikitərəfli əlaqələrin böyük perspektivlərə malik olduğunu göstərir. Ona görə düşünürəm ki, nə olursa-olsun, belə bir görüşün üçtərəfli qaydada keçirilməsi, sülhlə bağlı razılaşmanın bəyan edilməsi, ya da imzalanması regionda bizi sülhə daha da yaxınlaşdırmış olacaq və bu sülh uzunmüddətli olacaq. Ancaq heç şübhəsiz ki, burada mütləq Zəngəzur dəhlizi, onun iş rejimi, Azərbaycanın tələb etdiyi manevsiz keçid məsələsinə də aydınlıq gətiriləcək".

**İsmayıl Qocayev**

# Bakı üçün fürsətlər yaranıb

## ABŞ ilə yaxınlaşma yeni regional oyunun başlanğıcıdır

**Bu gün dünyada beynəlxalq münasibətlər gərgin və qeyri-müəyyən vəziyyətdədir. Belə bir zamanda Azərbaycan xarici siyasətdə fəal mövqe tutur və milli maraqlara əsaslanan addımlar atır.**



Prezident İlham Əliyevin ABŞ-yə səfəri də bu siyasətin davamı kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində keçirilən görüşlər və aparılan danışıqlar Azərbaycan-ABŞ münasibətlərinə yeni istiqamət verməklə yanaşı, regionda sabitliyin və əməkdaşlığın inkişafına da töhfə verə bilər.

Hazırkı şəraitdə Azərbaycanın həm qonşu ölkələrlə, həm də qlobal güclərlə münasibətlərini müsbət formada davam etdirməsi xüsusi əhəmiyyət daşıyır.

**Siyasi elmlər üzrə fəlsəfə doktoru, politoloq Şəbnəm Həsənova "Şərq"ə mövzu ilə bağlı açıqlama verib:**

"Beynəlxalq münasibətlər sisteminin son dərəcə gərgin və qeyri-müəyyən bir mərhələsində Azərbaycan aktiv xarici siyasət kursu həyata keçirir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi əgər Qərbdən gələn təzyiqlərə boyun əysəydik, bu gün regionun ən azı iki dövləti ilə müharibə vəziyyətində ola bilərdik. Azərbaycanın prioriteti ilk növbədə regional aktorlarla münasibətlərin müsbət və davamlı şəkildə inkişaf etdirilməsidir. Bununla yanaşı Azərbaycan dünyanın istənilən dövləti ilə əməkdaşlığa açıqdır. Əgər söhbət qlobal güc mərkəzlərindən gedirsə, əməkdaşlığa açıq olmaq təbiidir. Bu münasibətlərə mənfi prizmadan baxmaq əvəzinə qarşılıqlı maraqlar üzərində qurulmuş dialoqu təşviq etmək daha rasional olardı. Prezident İlham Əliyev də yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətləri ilə bağlı müsbət hadisələrin baş verəcəyini proqnozlaşdırırdı. ABŞ-də Bayden-Blinken administrasiyasından fərqli olaraq, Donald Trampın beynəlxalq proseslərə daha praqmatik yanaşdığını müşahidə edirik. Onun əməkdaşlığa açıq olması, mövcud münaqişələri arxa plana çəkərək dividendlərə fokuslanmağı biznes təfəkküründən irəli gəlir. Trampın və ona yaxın biznes dairələrinin regionla bağlı həyata keçirdiyi və nəzərdə tutulan layihələrə nəzər salmaq kifayətdir ki, bu yanaşmanı anlamaq mümkün olsun".

**Politoloq Ağ Evdə İlham Əliyev və Nikol Paşinyanın görüşməsi ehtimalını da qiymətləndirib:**

"Son günlərdə mediada Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüşün keçiriləcəyi barədə məlumatlar yayılıb. Belə görüşlər və təmaslar təbii ki, müsbət haldır. Lakin hesab edirəm ki, konkret olaraq bu platformanın həlledici rol oynayacağını gözləmək düzgün olmazdı".

**Müsahibimiz ABŞ-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsinə müsbət yanaşdığını söyləyib:** "Münasibətlərin dərinləşməsi regional məsələlərin yalnız bir mərkəzdə cəmlənməməsi və Azərbaycanın diplomatik manevr imkanlarının genişlənməsi baxımından olduqca əhəmiyyətlidir".

**Banuçiçək Kalbalıyeva**



# Zorakılığın kökü evdən başlayır

## Valideynlər məsuliyyətdən imtina edir, uşaqlar faciə yaşayır

**Son zamanlar azyaşlı uşaqlara qarşı zorakılıq hallarında ciddi artım müşahidə olunur. Sosial şəbəkələrdə yayılan görüntülər və cəmiyyətin bu görüntülərə verdiyi reaksiyalar vəziyyətin nə qədər narahatedici olduğunu göstərir. Xüsusilə dörd yaşlı uşağa qarşı yazılan rəy və şərhlər insanı dəhşətə gətirir. Azyaşlı uşaqları günahlandıran, zorakını müdafiə edən ifadələr adi hala çevrilib.**



Bu isə cəmiyyətin bəzi təbəqələrində təhlükəli düşüncə tərzinin kök saldığını nümayiş etdirir. Artıq vəziyyət sadəcə fərdi hadisələr səviyyəsində deyil, ciddi sosial və psixoloji problem kimi dəyərləndirilməlidir.

**Psixoloq Elmir Əkbər "Şərq"ə açıqlamasında vurğulayıb ki, bu tip problemlərin əsas səbəbi insanlar reallığın, obyektiv həqiqətin üzünə baxmaq istəməməsindən ibarətdir:**

"Cəmiyyətin böyük bir qismi həqiqəti eşitməkdən çəkinir. Məsələn, televiziya efirlərində və digər ictimai platformalarda bu və bunun kimi sosial problemlərin səbəbləri və kökləri barədə danışıldıqda tez-tez qeyd olunur ki, tamaşaçılar bu cür həqiqətləri qəbul etmək istəmirlər. Həqiqəti söyləmək əhalinin əksəriyyətinin xoşuna gəlmir. Əslində, baş verən bir çox neqativ halların qarşısını alacaq və gələcəkdə profilaktik təsir göstərə biləcək əsas subyekt valideynlərdir. Lakin təəssüf ki, bu məsuliyyəti çox zaman öz üzərlərinə götürmürlər. Məsələn, qız övladlarının evdən qaçması hallarının səbəbi kimi valideynin ona kifayət qədər zaman ayırmaması və psixoloji durumuna diqqət yetirməməsi göstərildikdə, valideyn buna qarşı emosional reaksiya verir və adının hallanmasından narahat olur. Eyni hal yeniyetmələrin və abituriyentlərin intihar hallarında da müşahidə olunur. Soruşulduqda ki, niyə valideyn övladını vaxtında psixoloji yardıma yönəltməyib, buna da eyni aqressiv münasibət sərgilənir. Narkomaniya, qumar asılılığı, alkoqolizm, radikal dini sektalara qoşulma və digər bu qəbildən olan sosial sapmaların səbəbləri müzakirə olunduqda da valideynlər ittiham qəbul etmək istəmirlər. Nəticədə, bu problemlər Azərbaycanda sistemli şəkildə həll edilmir və baş verən faktlar cəmiyyətin xəbərdar olduğundan dəfələrlə çoxdur. Baş verənlər sadəcə buz dağının görünən hissəsidir. Yəni təsadüfən lentə alınan və yayılan hallardır. Reallıqda isə bu tip hadisələrin əksəriyyəti nə çəkilir, nə də ictimailəşdirilir. Bu səbəbdən tam əminliklə demək olar ki, problemin miqyası çox daha geniş və daha ağırdır. Dörd yaşlı bir uşağın cinsi xarakterli hadisədə günahkar kimi təqdim edilməsi isə ayrıca ciddi araşdırma tələb edir. Belə bir hadisəni uşağın təqsiri kimi təqdim edən şəxsləri hüquq-mühafizə orqanları araşdırmalı və məsuliyyətə cəlb etməlidir. Çünki həmin şəxslər də həmin cani ilə eyni düşüncə və davranış kodlarına sahib ola bilərlər. Bioloji və psixoloji baxımdan dörd yaşında bir uşaq cinsəllik və cinsi akt barədə şüurlu anlayışa malik ola bilməz. Bu yaş dövründə uşağın davranışı, sadəcə, təlim və təqlid nəticəsində formalaşmış reaksiyalardır. Belə hallar göstərir ki, bu uşaqla uzun müddət ərzində davam edən travmatik bir proses yaşanıb və nəticədə həmin uşaqda davranış vərdişi formalaşdırılıb".

**Psixoloqun sözlərinə görə, Freydin və Yunqun nəzəriyyələrində cinsəllik fərqli aspektlərdə izah olunur, lakin dörd yaşlı uşaqda ənənəvi anlamda cinsi davranışdan söhbət gedə bilməz:**

"Bu hal açıq şəkildə göstərir ki, proses uzun müddət davam edib və uşaqda sistematik zorakılıq nəticəsində müəyyən davranış modelləri şərtləndirilib. Bu təkcə bir uşağın faciəsi deyil, ehtimal etmək olar ki, həmin şəxs digər uşaqlara qarşı da eyni cinayətləri törədib və ətrafda bu cür çox sayda cinayətkar ola bilər. Bütün bu problemlərin əsas səbəblərindən biri, valideynlərin uşaqlarının psixi inkişafına kifayət qədər diqqət ayırmaması, onları psixoloji baxımdan sağlam şəkildə yetişdirməməsi və onlarla düzgün psixoloji münasibətlər qura bilməməsidir. Uşaqların yaşadıqları travmatik hadisələr göstərir ki, valideyn-övlad münasibətləri ya zəifdir, ya da ümumiyyətlə yoxdur. Hadisələrin ailədə bu qədər uzun müddət gizli qalması, valideynin xəbərsiz olması, bu əlaqənin nə dərəcədə problemli olduğunun sübutudur. Digər tərəfdən, müvafiq dövlət qurumları da bu sahədə sistemli iş aparmalıdır. Problemlərin həlli kampaniya xarakterli deyil, davamlı və strukturlaşdırılmış şəkildə həyata keçirilməlidir. Bugünkü cəmiyyətdə psixoloji xidmətlər ya zəif inkişaf edib, ya da ümumiyyətlə mövcud deyil. Sosial şəbəkələrdə və real həyatda özünü psixoloq kimi təqdim edən bir çox şəxslər əslində qeyri-peşəkar, savadsız və əxlaq normalarından uzaq insanlardır. Təəssüf ki, cəmiyyətin böyük hissəsi bu şəxsləri psixoloq və psixoterapevt kimi qəbul edir. Dövlət səviyyəsində bu məsələyə ciddi nəzarət olunmalı, peşəkar və lisenziyalı psixoloji xidmətlər qurulmalıdır. Bağçalarda, məktəblərdə dövlət tərəfindən təyin olunmuş psixoloji xidmətlər fəaliyyət göstərməli, əgər ailədə valideyn öz funksiyasını yerinə yetirmirsə, psixoloq bu vəziyyəti vaxtında aşkarlayıb müdaxilə edə bilməlidir".

**Fidan Həmişəyeva**

# Müharibə bitdi, mina savaşı davam edir

## Əlində mina xəritələri olanlar Ermənistanı girov saxlayır

**Kəlbəcərdə beş Azərbaycan hərbçisinin mina partlayışı nəticəsində yaralanması Ermənistanın işğal dövründə həyata keçirdiyi sistemli və planlı mina terrorunun acı nəticəsidir. Bu, təsadüfi bir təhlükə deyil! Ermənistanın azad edilmiş ərazilərimizi uzunmüddətli humanitar və hərbi təhlükəyə çevirmək məqsədilə basdırdığı minaların məntiqi davamıdır.**



**Mina müharibəsi Ermənistanın gizli düşmənçilik davamıdır**

Rəsmi İrəvan hələ də işğal zamanı basdırdığı minaların tam xəritəsini təqdim etməkdən imtina edir, bu isə beynəlxalq hüququn və xüsusilə müharibə sonrası humanitar prinsiplərin açıq şəkildə pozulması deməkdir. Hər dəfə belə bir faciə baş verdikcə, Ermənistanın regionda sülh və sabitliyə deyil, daha çox qarşıdurma və təhlükə mənbəyi kimi çıxış etdiyi bir daha təsdiqlənir. Tərəflər arasında sülh danışıqları aparıldığı bir zamanda mina qurbanlarının artması, Ermənistanın səmimiyyəti və gerçək niyyətləri ilə bağlı ciddi suallar doğurur.

Xatırladaq ki, Kəlbəcər rayonu ərazisində avqustun 5-i saat 19:05 radələrində təminat tapşırığı yerinə yetirərkən hərbi yük avtomobili Ermənistan silahlı qüvvələrinin basdırdığı minaya düşüb. Baş vermiş partlayış nəticəsində xəsarət alan Azərbaycan Ordusunun dörd nəfər hərbi qulluqçusu yaxınlıqdakı tibb müəssisəsinə təxliyə edilib. Onların həyatları üçün təhlükə yoxdur.

5 hərbi qulluqçunun mina partlayışı nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almaları faktı üzrə Kəlbəcər hərbi prokurorluğunda araşdırma aparılır.

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında deyib ki, torpaqlarımızın işğalı zamanı basdırılmış minalar və partlamamış hərbi sursatlar həm hərbiçilərimiz üçün, həm də öz doğma yurdlarına qayıdan mülki insanlar üçün təhlükə mənbəyi olaraq qalmaqdadır:**

"Müharibənin başa çatdığı 5 ilə yaxın dövrdə 300-dən çox insanımız minaya düşərək həlak olub və ya da xəsarət alıb. Müharibə döyüş meydanında başa çatsa da, təəssüf ki, mina müharibəsi davam etməkdədir. Ermənistana və beynəlxalq təşkilatlara dəfələrlə müraciət etməyimizə baxmayaraq, hələ də minalanmış ərazilərin dəqiq xəritələri ölkəmizə təqdim olunmayıb. Təqdim olunan xəritələrin dəqiqliyi isə cəmi 20 faizədək olub. Bu da həm ərazilərin minalardan təmizlənmə işlərimizi, həm də azad olunmuş ərazilərin yenidən qurulub bərpasını çətinləşdirir. O cümlədən 5 əsgərimizin minaya düşərək xəsarət alması ürək üzücü hadisədir. Belə ki, Ermənistan minalanmış ərazilərin dəqiq xəritələrini bizə təqdim etməməkdə davam etdikcə beynəlxalq təşkilatlar qarşısında bu məsələni mütəmadi qaldırmalı və beynəlxalq normalar çərçivəsində tələbimizi çatdırmalıyıq.

Ola bilsin ki, Ermənistanda xəritələrlə bağlı dəqiqləşmə aparmaq çətindir. Çünki orada hakimiyyətin gücü zəifdir və xəritələr əlində olan şəxslər qəsdən gizlədib iki ölkə arasında münasibətlərin normallaşmasına bu yolla mane olmağa çalışırlar. Amma hər halda biz tələbimizi beynəlxalq platformalarda və diplomatik kanallarla mütəmadi çatdırmalıyıq və Ermənistan hakimiyyətini xəritələrin taleyini düşünməyinə məcbur etməliyik. Ermənistan əgər sülh istəyirsə, düşmənçiliyi davam etdirməmli və belə cinayətlərin davam etdirilməsindən əl çəkməlidir".

**Şəymən**



# Vaşinqton danışıqları

## İlham Əliyevin irəli sürdüyü "5 prinsip" regionda sülhün əsas hüquqi bazası sayılır

**Prezident İlham Əliyevin Ağ Evə ilk rəsmi səfəri müasir Azərbaycan diplomatiyası və xarici siyasəti baxımından mühüm siyasi hadisə olmaqla yanaşı, ABŞ-Azərbaycan münasibətlərinin yeni mərhələyə qədəm qoyduğunu təsdiqləyən strateji jest kimi qiymətləndirilə bilər.**

Bu səfər, təkcə iki ölkə arasında münasibətlərin simvolik göstəricisi deyil, həm də regionda yeni geosiyasi arxitekturanın formalaşmasında Azərbaycanın artan rolunun təsdiqidir. Donald Trampın birinci prezidentliyi dövründən başlayaraq, Azərbaycan Prezidenti İlham Əliyevlə qarşılıqlı hörmət və siyasi etimada əsaslanan münasibətlər formalaşıb. Tramp administrasiyası dövründə Ağ Evin Cənubi Qafqaza yanaşmasında Azərbaycanın xüsusi çəkisi daha aydın şəkildə hiss olunurdu. Bu, ilk növbədə Azərbaycanın regionun ən güclü dövləti olması, beynəlxalq hüququ bərpa edərək ərazi bütövlüyünü təmin etməsi və bununla qlobal təhlükəsizlik gündəminə töhfə verməsi ilə bağlı idi. Məhz həmin dövrdə Donald Tramp tərəfindən Prezident Əliyevə ünvanlanan məktublarda Azərbaycanın ABŞ üçün strateji tərəfdaş olduğu dəfələrlə vurğulanmış, ikitərəfli münasibətlərin inkişafında siyasi iradənin önəmi xüsusi qeyd olunmuşdu. Bu məktublarda ikitərəfli əməkdaşlıq, enerji təhlükəsizliyi, antiterror mübarizəsi və regional sabitlik sahələrindəki tərəfdaşlığın inkişafı əsas xətt kimi ön plana çıxırdı. Ölkə rəhbərinin ABŞ-yə səfəri, Trampın prezidentliyə qayıdışı fonunda Azərbaycan-ABŞ münasibətlərində uzunmüddətli gərginlikdən sonra yeni, strateji əməkdaşlıq mərhələsinin başlanğıcını ifadə edir. Qeyd edək ki, uzun illərdir ki, Azərbaycan-ABŞ münasibətləri gərgin və sönük xarakter daşıyırdı. Xüsusilə Co Baydenin prezidentliyi dövründə Vaşinqtonun Ermənistana açıq dəstəyi və Azərbaycana qarşı sərgilədiyi qərəzli siyasət əlaqələrin böhran səviyyəsinə çatmasına səbəb olmuşdu. Bu illər ərzində Ermənistan rəhbəri Nikol Paşinyan dəfələrlə ABŞ-yə səfər etsə də, Azərbaycan tərəfindən belə səfərlər müşahidə olunmurdu. Lakin Donald Trampın 2024-cü ilin noyabrında prezident seçilməsi ilə bu dinamika dəyişdi. Trampın şəxsi münasibətlərə önəm verməsi və Azərbaycan Prezidenti İlham Əliyevin vaxtilə onun seçilməsinə dair müsbət fikirlər səsləndirməsi iki lider arasında qarşılıqlı anlayış üçün zəmin yaratdı. İlham Əliyevin Vaşinqtona səfəri bu baxımdan yalnız diplomatik hadisə deyil, həm də münasibətlərin strateji müstəviyə keçidinin göstəricisidir. Görüşdə enerji əməkdaşlığı, kommunikasiya layihələri və regional təhlükəsizlik məsələlərinin gündəmdə olacağı gözlənilir. Bu səfər Cənubi Qafqazda sabitliyin bərqərar olunması və Azərbaycanın geosiyasi rolunun güclənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

### Reallıq budur ki, Azərbaycan bölgədə sülh təşəbbüslərinin əsas aparıcı qüvvəsidir

**Siyasi şərhçi Fərid Şahbazlı "Şərq"ə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin ABŞ-yə səfəri Azərbaycan-ABŞ münasibətlərində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Ekspertin sözlərinə görə, bu, bir faktdır ki, son illərdə dövlətlərarası əlaqələrlə yanaşı, iki ölkə arasında şəxsi etimada əsaslanan liderlər diplomatiyası formalaşıb:**

"Prezidentlər arasında müxtəlif formatlarda davamlı təmaslar siyasi koordinasiyanın gücləndiyini göstərir. Bu səfər isə ikitərəfli əlaqələrin daha da dərinləşdiyinin göstəricisidir. Vaşinqton-Bakı xəttində strateji dialoqun inkişafı Azərbaycanın regiondakı rolunu nümayiş etdirir və daha da möhkəmləndirir. Səfər eyni zamanda Azərbaycan diplomatiyasının çevikliyini və prinsipial mövqeyini nümayiş etdirir. Dövlət başçısı İlham Əliyevin irəli sürdüyü "5 prinsip" regionda sülhün əsas hüquqi bazası sayılır. Bu prinsiplər Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin təminatıdır. Vaşinqton danışıqları yalnız Ermənistanla münasibətləri deyil, həm də beynəlxalq hüququn üstünlüyünü əhatə edəcək. Prezidentin səfəri eyni zamanda regional gələcək üçün diplomatik konturların müəyyənləşdirilməsinə xidmət edir. Reallıq budur ki, Azərbaycan bölgədə sülh təşəbbüslərinin əsas aparıcı qüvvəsidir. Bu yanaşma hərbi deyil, hüquqi və diplomatik əsaslara söykənir. Bu baxımdan görüşün nəticələri Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirə bilər".

**F.Şahbazlı əlavə edib ki, Prezident İlham Əliyevin bu görüşdə tutacağı prinspial mövqe və strateji yanaşma tərəfdaş ölkələr tərəfindən diqqətlə izlənilir:**

"Görüş zamanı Azərbaycan tərəfi öz prioritetlərini və regional sabitlik vizyonunu açıq şəkildə ortaya qoyacaq. Vaşinqton görüşü çərçivəsində Azərbaycanla Ermənistan arasında sülhlə bağlı siyasi iradə ifadə edən bəyannamənin imzalanması ehtimalı da gündəmdədir. Belə bir sənədin qəbul olunması Cənubi Qafqazda uzunmüddətli sabitliyin təmininə ciddi töhfə verə bilər. Bu razılaşma həm də iki ölkə arasında diplomatik münasibətlərin bərpası istiqamətində mühüm addım kimi tarixə düşə bilər. Nəticə etibarilə, səfər Azərbaycan diplomatiyasının yeni strateji mərhələyə daxil olduğunu və ölkəmizin beynəlxalq münasibətlərdə artan çəkisini əyani şəkildə nümayiş etdirir".

**İsmayıl Qocayev**

# Aqşin Yenisey ermənilərə və Anna Akopyana mesaj göndərdi

## "Problem ermənilərin rasional yaddaşlarında deyil, emosional yaddaşlarındadır"



**Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan maraqlı açıqlaması ilə gündəmə gəlib. Akopyan yaxın vaxtlarda oxumağı planlaşdırdığı kitabın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müəllifi olduğu "Daha ədalətli dünya mümkündür" ("A Fairer World is Possible") adlı əsər olduğunu deyib:**

"Dostlarımızı, qonşularımızı daha yaxşı tanımaq, anlamaq, köhnə problemlərimizi uşaqların çiyninə atmamaq, düşüncəni yaxşılığa doğru dəyişmək, həyat keyfiyyətini yaxşılaşdırmaq, sağlam cəmiyyət formalaşdırmaq, güclü dövlətə sahib olmaq, yeni vətəni dirçəltmək, özünə inam qazanmaq üçün təhsil dəbdədir".

Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Daha ədalətli dünya mümkündür" kitabını oxumaq istəməsi və bunu açıq şəkildə ifadə etməsi Ermənistan cəmiyyətində ciddi rezonans doğurub. Məlumat yerli və region mediasında da geniş müzakirələrə səbəb olub.

Qeyd edək ki, Rəcəb Tayyib Ərdoğan bu kitabında beynəlxalq ədalətsizliklər, BMT-nin struktur problemləri və qlobal nizamın dəyişməsinin zəruriliyindən bəhs edir.

Maraqlıdır, düşmənçilik üzərində qurulan milli kimliklər dövründə fərqli tərəfləri "oxumaq", "anlamaq" kimi yanaşmalar cəmiyyətlər arasında yeni mərhələnin başlanğıcı ola bilərmi? Yoxsa Akopyanın bu mesajı postmüharibə populizminin bir başqa formasıdır?

**Şair Aqşin Yenisey "Şərq"ə açıqlamasında deyib ki, kitabın milli xarakterə təsiri ya zəif olur, ya da uzun zamanlar tələb edir. Onun sözlərinə görə, erməni xalqının psixologiyasından türk düşmənliyini çıxarmaq üçün "yumşaq güc"lə yanaşı, inzibati güc də lazımdır:**

"Bəzən xalqları liderlər sərt qərarlarla yeni düşüncəyə cəlb ediblər. Knyaz Vladimir rusları qamçılaya-qamçılaya xristian edib. Atatürkün türkləri modern dünyaya çıxarmaq üçün tətbiq etdiyi sərt qaydaları bu gün də ona bağışlamayanlar var və s. Ermənilər kitab oxumaqla yanaşı kilsədən yoluxduqları mifoloji tarixləriylə məsələni həll etməlidirlər. Problem ermənilərin rasional yaddaşlarında deyil, emosional yaddaşlarındadır. Emosional yaddaş isə kitab oxumaqla unudulan bir şey deyil. Görün müsəlmanlar neçə əsrdir bu emosional yaddaşın zülmünə dözürlər. Amma əl çəkmirlər. Erməni föstleydinin sözləri öz milləti üçün faydalıdır, amma oxuduğu Ərdoğanın kitabından əvvəl, erməni millətçilik mifologiyasındakı uydurmalar olsa".

**Şəymən**

# Gəl, gəl, məktəb avtobusları!

## Bir avtobus min problemi həll edə bilər

**Məktəb avtobuslarının Bakı şəhərində müəyyən məktəblərdə pilot olaraq tətbiqi ilə bağlı ilkin layihə hazırlanır. Elm və Təhsil Nazirliyindən verilən məlumatda bildirilib ki, Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"na əsasən ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrində təhsil alanların rahat və təhlükəsiz daşınması məqsədilə "məktəb avtobusları"ndan istifadənin təşkili nəzərdə tutulur.**

Məktəb avtobuslarının Bakı şəhərində müəyyən məktəblərdə pilot olaraq tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Elm və Təhsil Nazirliyi tərəfindən ilkin layihə hazırlanır".

Qeyd edək ki, elm və təhsil naziri Emin Əmrullayev bir neçə ay əvvəl jurnalistlərə verdiyi açıqlamada bildirmişdi ki, növbəti tədris ilindən məktəb avtobuslarının fəaliyyətə başlaması planlaşdırılır.

"Bununla bağlı bəzi layihələr hazırlanıb. Hətta deyə bilərəm ki, bəzi məktəblərdə prosesi ölçmək və qiymətləndirmək baxımından dizayn olaraq həyata keçiririk. Növbəti tədris ilində artıq məktəbli avtobuslarının fəaliyyətə başlaması planlaşdırılır. Bu, əhalinin, tıxacın daha çox olduğu yerlərdə təşkil ediləcək", - deyə nazir əlavə etmişdi.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə Təhlil və Kommunikasiyalar Mərkəzinin rəhbəri Kamran Əsədov "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda məktəb avtobuslarının istifadəyə verilməsi təhsil və nəqliyyat sahəsində ciddi dəyişikliklərə səbəb olacaq bir təşəbbüsdür:**

"Bu sistemin tətbiqi bir neçə mühüm aspektdə müsbət təsir göstərəcək: şagirdlərin təhlükəsizliyi, yol hərəkətində intizamın artırılması, nəqliyyat sıxlığının azaldılması, valideynlər üçün əlavə rahatlıq və ekoloji faydalar. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, məktəb avtobuslarının tətbiqi həm şagirdlərin rifahına, həm də şəhər infrastrukturunun



### Bu sistemin tətbiqi təhsilin gələcəyini dəyişəcək

daha səmərəli işləməsinə xidmət edir".

**K.Əsədov vurğulayıb ki, məktəb avtobusları, ilk növbədə, şagirdlərin təhlükəsizliyini təmin edir:**

"Xüsusilə ibtidai və orta məktəb şagirdləri üçün bu sistem vacibdir, çünki onlar fərdi nəqliyyat vasitələrindən və ya ictimai nəqliyyatdan istifadə edərkən müəyyən risklərlə qarşılaşa bilərlər. Piyada keçidlərində qəza ehtimalı, şəhər nəqliyyatında sıxlıq və xaos, eləcə də valideynlərin daim övladlarının yol təhlükəsizliyi ilə bağlı narahatlığı məktəb avtobuslarının əhəmiyyətini artırır. Avtobuslar xüsusi marşrutlarla hərəkət etdiyindən və təcrübəli sürücülər tərəfindən idarə olunduğundan, şagirdlərin evdən məktəbə və məktəbdən evə təhlükəsiz şəkildə çatdırılması təmin edilir".

**Ekspertin fikrincə, məktəb avtobuslarının istifadəyə verilməsi şəhər nəqliyyatındakı tıxacları azaltmağa kömək edəcək:**

"Hazırda Bakı və digər iri şəhərlərdə səhər saatlarında və dərs bitdikdən sonra yollarda ciddi sıxlıq müşahidə olunur. Bunun əsas səbəblərindən biri valideynlərin övladlarını fərdi avtomobillərlə məktəbə aparıb-gətirməsidir. Məktəb avtobuslarının tətbiqi ilə bu yük azalacaq, yollar daha az yüklənəcək və nəqliyyat axını daha səmərəli təşkil olunacaq. Həmçinin, bu sistem sürücülərin yol hərəkəti zamanı məktəblərin qarşısında nizamsız dayanma hallarının qarşısını alacaq və piyadaların təhlükəsizliyini artıracaq. Məktəb avtobuslarının başqa bir üstünlüyü valideynlər üçün əlavə rahatlıq yaratmasıdır. Hazırda bir çox valideyn iş saatlarına uyğun olaraq övladlarını məktəbə aparmaq və gətirmək üçün ciddi vaxt itkisi ilə qarşılaşır. Xüsusilə səhər saatlarında həm işə, həm də məktəbə yetişmək üçün sıxlıqla mübarizə aparmaq çətinlik yaradır. Məktəb avtobusları bu problemi həll edərək valideynlərə gündəlik planlamalarını daha rahat tənzimləmək imkanı verəcək. Eyni zamanda, yanacaq və nəqliyyat xərclərinin azalması da ailə büdcəsinə müsbət təsir edəcək.

Ekoloji baxımdan məktəb avtobuslarının istifadəsi böyük üstünlüklər təmin edir. Şəhər daxilində fərdi avtomobillərin çox olması təkcə tıxac yaratmır, həm də havanın çirklənməsinə səbəb olur. Şəxsi avtomobillərlə müqayisədə məktəb avtobusları daha çox şagirdi eyni vaxtda daşıdığı üçün karbon qazı emissiyasını azaldır və ekoloji tarazlığı qoruyur. Bu yanaşma xüsusilə inkişaf etmiş ölkələrdə tətbiq edilir və şəhər ekosisteminin qorunmasına töhfə verir".

**Məktəb avtobuslarının tətbiqinin dünya təcrübəsində geniş yayılmış bir sistem olduğunu xatırladan K.Əsədov qeyd edib ki, təhsil sahəsində böyük uğurlar qazanan ölkələr bu modeli uzun illərdir tətbiq edir:**

"Azərbaycanda bu sistemin tətbiqi üçün bəzi hüquqi və infrastruktur məsələlərinin həlli vacibdir. Avtobus marşrutlarının müəyyən edilməsi, sürücülərin xüsusi hazırlıq keçməsi, avtobus dayanacaqlarının təhlükəsiz və rahat şəkildə yerləşdirilməsi və avtobusların müasir tələblərə uyğun şəkildə təchiz olunması mühüm amillərdir. Bundan əlavə, valideynlərin bu sistemə inteqrasiyası üçün maarifləndirmə işləri aparılmalı, məktəb avtobuslarının istifadəsinin üstünlükləri geniş izah edilməlidir. Məktəb avtobuslarının tətbiqi təhsil sisteminə də müsbət təsir göstərəcək. Şagirdlərin məktəbə vaxtında və nizamlı şəkildə gəlməsi onların dərsə davamiyyətini artıracaq, gecikmələrin və intizamsızlığın azalmasına səbəb olacaq. Bu isə təhsilin keyfiyyətinə müsbət təsir edəcək və məktəb intizamını daha sistemli hala gətirəcək. Əlavə olaraq, məktəb avtobusları xüsusilə rayon və kənd yerlərində yaşayan şagirdlər üçün böyük rahatlıq yaradacaq. Uzaq məsafələrə piyada və ya çətin nəqliyyat şərtləri ilə gedən şagirdlər üçün bu sistem daha əlçatan təhsil imkanları yaradacaq. Bütün bu müsbət təsirləri nəzərə alaraq, məktəb avtobuslarının istifadəyə verilməsi təhsil və nəqliyyat sahəsində inqilabi bir addım olacaq. Əgər bu sistem uğurla tətbiq edilərsə, həm şagirdlərin təhlükəsizliyi təmin ediləcək, həm də şəhər infrastrukturunda müsbət dəyişikliklər baş verəcək. Azərbaycanın təhsil strategiyasının bir hissəsi kimi məktəb avtobuslarının geniş tətbiqi ölkənin gələcək inkişafına töhfə verəcək və təhsil prosesini daha rahat, təhlükəsiz və effektiv hala gətirəcək. Dövlət Proqramına əsasən, 2025?2030-cu illər ərzində bu istiqamətdə təhlillər aparılacaq, ehtiyaclar müəyyən olunacaq və ümumi təhsil və məktəbəqədər təhsil müəssisələrində təhsil alanların daşınması üçün "məktəb avtobusları"ndan istifadə olunması təmin ediləcək".

**Şəymən Bayramova**



# Tramp və Putin görüşərsə, dünya dəyişə bilər

## "Əgər görüş İstanbulda olmasa, Ərdoğan məyus olacaq"

**Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Rusiya Prezidenti Vladimir Putin və ABŞ-nin Prezidenti Donald Tramp arasında görüşün yeri razılaşdırılıb.**

Bu məlumat beynəlxalq ictimaiyyətin diqqətini yenidən Rusiya-Ukrayna müharibəsinə və bu istiqamətdə mümkün diplomatik təşəbbüslərə yönəldib.

**Türkiyəli xarici siyasət üzrə ekspert Aydın Sezər "Şərq"ə mövzu ilə bağlı açıqlama verib:**

"Əgər bu görüş gələn həftə və ya yaxın zamanda baş tutsa, Ukrayna ilə bağlı sülh prosesinin sürətlənəcəyi gözlənilə bilər. Digər tərəfdən Tramp və Putin arasında birbaşa təmasın baş verməsi mühüm hadisə olacaq. Bununla belə, Rusiya işğal etdiyi ərazilərdən geri çəkilməyəcəyini açıq şəkildə bəyan edib. Eyni zamanda Ukrayna bu ərazilərin azad edilməsində israrlıdır. Bu səbəbdən danışıqların ilk raundundan dərhal nəticə gözləmək real olmazdı. Nəticə olsa belə, bu, bir növ möcüzə sayılardı. Buna baxmayaraq, liderlər arasında birbaşa görüşün başlanması Ukraynada sülh prosesinin başlanğıcı və mühüm mərhələsi kimi qiymətləndirilə bilər. Görüş zamanı Ukrayna məsələsindən əlavə ABŞ və Rusiya arasında münasibətlərin normallaşdırılması, əvvəlki səviyyəyə qaytarılması kimi mövzuların da müzakirə olunacağı gözlənilir. Bu həm Rusiya, həm də ABŞ üçün strateji əhəmiyyət daşıyır. Müəyyən müsbət irəliləyişlərin olacağına inanmaq üçün əsaslar var".

**Ekspert Türkiyə və Prezident Ərdoğanın da bu prosesdə mühüm rolu olduğunu bildirib:**

"Ərdoğan Tramp və Putinin İstanbulda görüşməsi üçün ciddi səylər göstərir, İstanbulun "sülh və konfranslar şəhəri" olduğunu vurğulayır. Əgər bu görüş Körfəz ölkələrindən birində baş tutarsa, Ərdoğan ciddi məyusluq yaşaya bilər".

**Banuçiçək**

**Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın ABŞ-də, Vaşinqtonda görüşü gözlənilir. Yayılan məlumata görə, D.Tramp Ermənistan Baş naziri və Azərbaycan Prezidenti ilə ayrı-ayrılıqda görüşəndən sonra liderlərin sülh danışıqları başlayacaq. Həmin gün dövlət rəhbərlərinin birgə bəyanatı da gözlənilir. Vaşinqtonda Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi ilə bağlı memorandumun imzalanacağı da deyilir.**





# "Sülh olacaq, Rusiya heç bir təxribata risk etməyəcək"

## Mehman Əliyev: "Moskva yaxşı alver etməyi bacarır. Əslində, Rusiyanın özü Zəngəzur dəhlizində maraqlıdır"

Vurğulanır ki, görüşün məqsədi tərəflər arasında uzun illər davam edən münaqişəyə son qoyacaq sülh sazişinin əldə olunmasıdır. Xatırladaq ki, sonuncu görüş iyul ayında Birləşmiş Ərəb Əmirliklərində baş tutub. Qeyd olunur ki, ABŞ Prezidenti bu görüşlə beynəlxalq konfliktlərin həllində vasitəçi rolunu daha da gücləndirmək və dünya liderlərinin ona bəxş etdiyi Nobel Sülh Mükafatı namizədliyini möhkəmləndirmək niyyətindədir.

Maraqla gözlənilən Vaşinqton görüşü və son günlər regionda baş verənlər barədə "Şərq"in suallarını cavablandıran politoloq Mehman Əliyev ABŞ-də keçiriləcək görüşün olduqca əhəmiyyətli olduğunu düşünür. Ekspertin sözlərinə görə, burada söhbət ABŞ-nin imzalanacaq sülh sazişində qarant rolu olmasından gedir.

**- Mehman müəllim, ABŞ Prezidenti D.Trampın təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərliyi arasında baş tutacaq görüşün əhəmiyyətini necə dəyərləndirirsiniz? Ciddi nəticələr gözlənilirmi?**

- Nəhəng ölkələrin dövlət başçıları Ağ Evə düşmək, orada D.Trampla görüşmək, söhbət etmək üçün növbəyə düzülüblər. Yəni Azərbaycan Prezidentinin, o cümlədən Ermənistan Baş nazirinin Ağ Evdə Tramp tərəfindən qəbul olunması elə-belə məsələ deyil, zarafat deyil. Əgər bu səviyyədə bir görüş təklif olunursa, deməli, ciddi nəticələri olacaq. Bu görüş sadəcə, Azərbaycan çayı içmək, yaxud erməni konyakı içmək üçün deyil ki?! Kifayət qədər ciddi hadisədir. ABŞ sülh prosesində təşəbbüsü öz üzərinə götürür və aparıcı rol oynayır. Vaşinqton Azərbaycan-Ermənistan arasında sülh danışıqlarında, hansısa sənədin imzalanmasında qarant rolunda kimi çıxış edir. Bu, çox vacibdir. Nəyə görə məhz bu gün baş verir? Uzun müddətdir tərəflər arasında danışıqlar gedir. Artıq sülh sənədində bütün maddələr, prinsiplər razılaşdırılıb. Ermənistan tərəfi üzərinə öhdəlik götürür və söz verir ki, Konstitusiyanı dəyişəcəklər. Həmçinin, ATƏT-in Minsk qrupunun ləğvinə dair müraciət edəcəklər və Zəngəzur dəhlizi də açılacaq. O cümlədən, Türkiyə ilə normal qonşuluq münasibətləri qurulacaq. Ancaq bunların hamısı hələlik sözdən ibarətdir, yəni vədlərdir. Bu da onunla bağlıdır ki, Ermənistanda 2026-cı ildə parlament seçkiləri keçiriləcək. Ölkədə siyasi situasiya kifayət qədər gərgindir. Hakim partiya ilə müxaliflər arasında ciddi mübarizə var. Başqa dövlətlərin Ermənistanda gedən proseslərə müdaxiləsi göz önündədir. Baş verənlər sülh prosesinə problem yarada bilər. Ona görə də ABŞ indiki şəraitdə bu prosesə qoşularaq Ermənistanın vəd etdiyi öhdəliklərin icra olunmasının qarantı olmaq istəyir. Əsas məsələ budur.

**- Bunu həm də Tramp administrasiyasının Paşinyan hökumətinə dəstəyi kimi qiymətləndirmək olarmı?**

- Əlbəttə. ABŞ-nin seçki öncəsi Nikol Paşinyana birbaşa dəstəyi o deməkdir ki, Vaşinqton gələcək seçkilərdə məhz Paşinyanın qalib olmasını istəyir. Eyni zamanda prosesin davamını da baş nazirin iştirakı ilə yekunlaşdırmaq niyyəti güdür. Ermənistan hökuməti mühüm addımlar atmalıdır. Azərbaycan və Türkiyə ilə münasibətləri qurmalı, qondarma "soyqırımı" iddiasından, ərazi iddialarından birdəfəlik əl çəkməlidir. Əslində, Paşinyan bunların hamısını bəyan edib və sadəcə, reallaşması qalıb. Bununla yanaşı, Cənubi Qafqazda "Qafqaz Evi" layihəsi də reallaşmalıdır. Gürcüstan, Ermənistan və Azərbaycan bu proses-də aktiv iştirak etməlidir. Proses buna doğru gedir. Ehtimal ki, Ermənistanda parlament seçkilərindən sonra regionda sülh, sabitlik, əmin-amanlıq və əməkdaşlıq üçün ciddi addımlar atılacaq. Vaşinqton görüşü bu baxımdan da önəmlidir.

**- ABŞ-nin sülh prosesində təşəbbüsü ələ alması vasitəçilik missiyasıdır, yoxsa sadəcə, ikitərəfli prosesə təkan verir?**

- Yox, bu, vasitəçilik deyil. Ağ Ev rəhbəri tərəflərə çağırış edir ki, "siz görüşün, danışın, müzakirə aparın, ortaq nəticəyə gəlin". Həm Bakı, həm də İrəvan sülh sazişini imzalamağa hazır olduqlarını, sənəddə yer alan bütün bəndləri razılaşdırdıqlarını vurğulayırlar. Tramp da deyir ki, "buyurun, Ağ Evdə bunu ortaq bəyan edin və sənəd imzalayın". Tramp söz verir ki, ABŞ, şəxsən özü qarant kimi çıxış edəcək ki, sabah heç bir tərəf sülh sazişini pozmasın. ABŞ çox ciddi dövlətdir, faktiki olaraq dünyanın aparıcı super ölkəsidir, böyük nüfuza malikdir. Azərbaycan Prezidenti öz çıxışlarında bu məqama diqqət çəkib. Xüsusən, Donald Trampın Azərbaycana münasibətini, bölgəyə baxışını müsbət dəyərləndirib. Həmçinin, bəyan edib ki, rəsmi Bakı ABŞ-nin sülh prosesində olmasına, dəstək verməsinə etiraz etmir. Bir daha vurğulayıram, burada ABŞ qarant rolunda çıxış edir, vasitəçilik etmir. Düzdür, prosesdə pərdə arxasında vasitəçilik edənlər olub. Prosesdə Rusiya daha yaxından iştirak edib. Müəyyən dövrlərdə Avropa İttifaqının üzvləri, Fransa kimi ölkələr vasitəçiliyə təşəbbüs göstəriblər. ABŞ isə Minsk qrupunun həmsədr ölkəsi olsa da, prosesdə nisbətən az görünüb, daha çox kənardan izləyib. ABŞ Azərbaycan və Ermənistan sülh sazişində yekun və ortaq mövqeyə gəldikdən sonra ortaya çıxdı və prosesə töhfə vermək niyyətində olduğunu açıqladı.

### "Böyük ehtimal, dəhliz məsələsində Moskva-Vaşinqton arasındakı məsələlər həll olunub"

**- Zəngəzur dəhlizi məsələsi yenidən gündəmdədir. Xüsusən, ABŞ-yə məxsus özəl şirkətin dəhlizə nəzarəti həyata keçirməsi müzakirə olunur. Bu təklifin reallıq payı nə qədərdir? Rusiyanı kənarda qoymaq mümkün olacaqmı?**

- Əvvəla onu vurğulayım ki, Ermənistan Rusiyadan uzaqlaşmaq, Moskvanın İrəvana təsirini azaltmaq istəyir. O cümlədən rus ordusunun, sərhədçilərin ölkə ərazisindən tamamilə çıxarılmasına çalışır. İstəyir ki, bütün Ermənistan ərazisi İrəvan hökumətinin yurisdiksiyasında, idarəetməsində olsun. Əslində, bu proses çoxdan gedirdi. 2020-ci ilin 44 günlük müharibəsi bu prosesi ciddi şəkildə sürətləndirdi. Ermənistan-Azərbaycan arasında vətəndaş cəmiyyətləri arasında təmaslarda mən də iştirak edirdim. Erməni tərəfinin mövqeyi əvvəllər kifayət qədər kəskin idi. Bildirirdilər ki, "koridor" termini işlədilməli, belə bir status verilməməlidir. Çünki "dəhliz" beynəlxalq statusdur və elə olarsa, Ermənistan dəhlizə təsirini, nəzarətini itirə bilər. Ona görə də "dəhliz" yox, sadəcə "yol" ola biləcəyini deyirdilər. Ermənistan hesab edirdi ki, bu dəhliz ancaq Azərbaycan və Türkiyəni birləşdirmək üçündür. Mən çıxış edərkən, ermənilərin çox böyük səhv etdiyini üzlərinə dedim. Məsələn, 90-cı illərdə Azərbaycanın çox ciddi qarantiyası, təhlükəsizliyi və inkişafı "Əsrin müqaviləsi" ilə bağlı idi. Bakı-Tbilisi-Ceyhan neft boru kəməri də böyük qarant idi. Bunlar sadəcə Azərbaycana məxsus deyildi, beynəlxalq konsorsium layihələri idi. Operatorlar BP kimi nüfuzlu şirkətlər, beynəlxalq qurumlar idi. Ermənistan 30 illik işğal dövründə, 44 günlük müharibə vaxtı neft-qaz kəmərlərini vuracağını deyir, bizi hədələyirdi. Ancaq buna cəsarət etmədilər. Əgər layihələr sırf Azərbaycanın olsaydı, bəlkə risk edərdilər. Beynəlxalq qüvvələrlə, aparıcı ölkələrlə qarşı-qarşıya gəlməmək üçün cəhd göstərmədilər. Zəngəzur dəhlizinin beynəlxalq dəhliz statusunda olması, konsorsium yaranması da bənzər haldır. Zəngəzur dəhlizi böyük milli korporasiyaların layihəsi kimi Ermənistanın qarantiyası, inkişafı deməkdir. Bu dəhliz böyük Avropa bazarını Asiya bazarı ilə birləşdirəcək. Böyük bazarları birləşdirəcək dəhliz Ermənistandan keçəcək 42 kilometrlik məsafədir. Ermənistan dərk etməlidir ki, beynəlxalq konsorsium statusu qazanacaq Zəngəzur dəhlizi həm İrəvanın, həm də bütövlükdə Cənubi Qafqazın qarantiyası olacaq. Biz də neft kəmərləri, yataqları ilə bağlı ABŞ-nin "Amoco" şirkəti və Böyük Britaniyanın "BP" şirkətləri ilə danışıqlar aparırdıq. İlkin olaraq həmin şirkətlərlə saziş imzaladıq ki, yataqları birgə istirmar edəcəyik. Sonradan prosesə başqaları da qoşuldu. Amma operatorluq ABŞ-də qaldı. İndi müşahidə edirik ki, Paşinyan hökuməti də Zəngəzur dəhlizi ilə bağlı buna doğru gedir.

**- Dəhlizin keçəcəyi bölgədə rus sərhədçilərinin hələ də qalması hansısa problemlər yarada bilərmi?**

- Həmin bölgədə hələlik rus sərhədlərinin qalması problemdir. Sərhədin 5 km.lik zolağı Rusiya Federal Təhlükəsizlik Xidmətinin nəzarətindədir. Bu da o deməkdir ki, dəhliz rusların nəzarəti altına düşür. Paşinyan hökuməti çalışır ki, rus sərhədçilərini sözügedən ərazidən çıxartsın. Məhz dəhlizə nəzarətin ABŞ-nin özəl şirkətinə həvalə edilməsi o anlama gəlir ki, sabah ruslarla üz-üzə qalan Ermənistan yox, ABŞ olsun. Rusların oradan çıxmasını İrəvan yox, Vaşinqton tələb edəcək. Erməni tərəfinin buna gücü çatmır. Fikir verirsiz, ABŞ Ukraynaya dəstəyin əvəzində işğal edilmiş ərazilərdəki yataqları istəyir. Saziş imzalanandan sonra ABŞ Rusiyadan həmin ərazidən çıxmağı tələb edəcək. Ermənistanda dəhlizlə bağlı eyni ssenari gedir.

**- ABŞ-nin olduğu regionda, dəhlizdə Rusiya hansısa təxribatlara əl atacaqmı, yoxsa sakitcə geri çəkiləcək?**

- Rusiya heç bir təxribata risk etməyəcək. Moskva yaxşı alver etməyi bacarır. Əslində, Rusiyanın özü Zəngəzur dəhlizində maraqlıdır. Ona görə də kompromisə gedəcək. Rusiya öz sərvətlərini bu dəhliz vasitəsilə Yaxın Şərq körfəzinə, Cənub-Şərqi Asiyaya, Türkiyəyə və s. bölgələrə göndərə bilər. Böyük ehtimal, dəhliz məsələsində Moskva-Vaşinqton arasındakı məsələlər həll olunub. Məsələn, ABŞ tikintini Rusiyaya həvalə edə bilər. Yaxud başqa məsələdə siyasi bazarlığın olması mümkündür. Rusiya dəhlizin əleyhinə deyil. Cənub-Şimal Dəhlizinin əsas qanadı buradan keçir.

**- Bəs İranın mövqeyini necə şərh edərdiniz? Tehran da dəhlizin əleyhinədir...**

- İranda yaxşı proseslər gedir. Son dönəmdə Tehran-Bakı münasibətlərində gərginlik azalıb. Prezident M.Pezeşkian ölkəmizə bir neçə dəfə səfər edib. Reallıqda İran Zəngəzur dəhlizinin açılmasında maraqlıdır. Düzdür, Qərbin bölgədə olması və s. faktlar Tehranı narahat edə bilər. Amma İran hökuməti fərqindədir ki, tranzit ölkələr arasında ən çox udușlu dövlət məhz İran olacaq. Hazırda İran fars körfəzindəki limanlarını, həmçinin dəmiryollarını aktiv şəkildə inkişaf etdirir, yenidən qurur. Çünki bu gəlirlər ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Ən əsası isə hər hansı beynəlxalq layihədə iştirak İranın öz təhlükəsizliyi üçün vacibdir. Dünyada logistika çox ciddi rol oynayır. Hər zaman çalışırlar ki, beynəlxalq nəqliyyat marşrutlarında sülh, sabitlik olsun. Böyük iqtisadi maraqlar olduğu üçün heç bir ölkə logistika üzərində problemlərin olmasını istəmir.

**- Paşinyanın 2026-cı ildəki seçkilərə kimi rəqiblərinin təzyiqlərinə tab gətirməsi, növbəti seçkini udması ehtimalı yüksəkdirmi?**

- Paşinyan çox ağıllı oynayır. Ermənistanda Rusiyanın nüfuzu kifayət qədər aşağı düşüb. Ermənistan baş naziri öz siyasətini varlı şəxslərə, iş adamlarına hesablamır. Paşinyanın əsas elektoratı yoxsul, orta təbəqədir. Çünki varlı təbəqənin sayı azdır. Baş nazir də məhz aşağı, orta təbəqəyə yönəlik iş aparır. Məsələn, korrupsiyaya qarşı mübarizə aparır, Kilsəyə savaş açır, Rusiyanı tənqid edir və s. Ölkədə azadlıqların olmasına, qanunun aliliyinə yönəlik addımlar atır, islahatlar edir və s. Bunlar erməni millətinin xoşuna gəlir. Baxmayaraq ki, ölkədə ciddi problemlər qalmaqdadır, amma erməni əhalisi Paşinyanı dəstəkləyir. Reytinqi nisbətən ensə də, Paşinyan Ermənistanda ən nüfuzlu siyasətçi kimi qalır. Müxalifəti isə qəbul etmirlər. İndiki Vaşinqton görüşü və digər baş verənlərin də məqsədi odur ki, seçki qutusundan Paşinyan qalib çıxsın.

**İsmayıl Qocayev**

---

**BMT-nin dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Türkmənistanda keçirilən Üçüncü Konfransında Xəzərin dayazlaşması qlobal problem olaraq müzakirəyə çıxarılıb. BMT-nin Baş katibi Antonio Quterreş dünya birliyini dənizə çıxışı olmayan ölkələri dəstəkləmək üçün səylərini artırmağa çağırıb.**

# Xəzərin taleyi Volqadan asılıdır

## Su kəsilərsə, böyük fəlakət qaçılmazdır



### Dənizi xilas etmək üçün konkret fəaliyyət planı işlənməlidir

"Onlar həm inkişaf etməkdə olan ölkələr kimi, həm də dənizə çıxışı olmayan ölkələr kimi ikiqat əziyyət çəkirlər. Bu, onların ticarət imkanlarını məhdudlaşdırır, idxalı daha baha edir, ixracın rəqabət qabiliyyətini azaldır və beynəlxalq bazarlara çıxışı çətinləşdirir", - A.Quterreş bildirib. Konfrans çərçivəsində Xəzəryanı dövlətlərin hökumət rəsmiləri səviyyəsində keçirilən iclasda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Xəzəryanı dövlətlər arasında ticarət dövriyyəsinin dayanıqlı artım dinamikasını qeyd edərək, bunun həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əməkdaşlığın dərinləşməsi üçün möhkəm zəmin yaratdığını bildirib. Baş nazirin müavini cari ilin fevralında Tehranda keçirilmiş III Xəzər İqtisadi Forumunun ticarət və qarşılıqlı investisiya həcmlərinin genişlənməsi, enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib. Çıxışında ekoloji çağırışlara da toxunan Şahin Mustafayev su səviyyəsinin aşağı düşməsinin bütün regionda narahatlıq doğurduğunu, bu problemin hələ 2022-ci il Aşqabad Sammitində Azərbaycan Prezidenti tərəfindən qaldırıldığını və Bakıda bəstərəfli ekspert qrupunun ilk toplantısının təşkilinə hazırlıqların davam etdiyini vurğulayıb. Əlavə olaraq, tədbirdə Xəzər dənizinin ekosistemində baş verən dəyişikliklərin sosial-iqtisadi və ekoloji aspektləri geniş şəkildə müzakirə olunub. Su səviyyəsindəki dəyişikliklərin sahilyanı ərazilərdəki həyat şəraitinə və regional inkişaf proseslərinə mümkün təsirləri diqqət mərkəzində olub. Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, səviyyə dəyişikliklərinin mənfi təsirlərinin minimuma endirilməsi üçün elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi, balıqçılığın, gəmiçiliyin və biomüxtəlifliyin qorunması sahəsində birgə proqramların həyata keçirilməsi zəruridir. İclas zamanı Xəzər dənizində baş verən dəyişikliklərin öyrənilməsi üçün ümumi standartlar və yanaşmalar formalaşdırmağa imkan verəcək çoxtərəfli qarşılıqlı fəaliyyət mexanizminin işə salınması təşəbbüsü irəli sürülüb. Baş nazirin müavini qeyd edib ki, Xəzərin dayazlaşması ilə bağlı beştərəfli ekspert qrupunun ilk toplantısının Bakıda keçirilməsinə hazırlıqlar başlayıb.

Qlobal böhrandan söhbət getdiyi bir vaxtda yumora nə dərəcədə yer vermək olar, müəmmalıdır. Amma müzakirələr Xəzərlə bağlıdırsa, satirik yumor, bizcə, artıqlıq etməz. Xəzərin dayazlaşması, dənizin çəkilməsi, dəniz suyunun səviyyəsinin azalması, dənizə axıdılan çirkab sularından danışıldıqda "Bəyin oğurlanması" filmində İsrafilin anasının məşhur sözləri yada düşür: "Gəlirlər, yazırlar, gedirlər..." Xəzərlə bağlı da təxminən eyni mənzərədir. Hardasa yığışırlar, danışırlar, sonra da ayrılıb gedirlər. Xəzərsə dərdləri ilə başbaşa qalır.

Xəzər xilas gününü gözləyir. Xilasa aparan yollar, üsullar hansıdır? Nə kimi tədbir görülməlidir?

**Ekoloq Rövşən Abbasov "Şərq"ə açıqlamasında qeyd etdi ki, Xəzəri sağlamlaşdırmaq, dayazlaşmanın qarşısını almaq üçün konkret fəaliyyət planı işlənməlidir:**

- Və bu fəaliyyət planında da əsas məsuliyyət Rusiyanın üzərinə düşməlidir. Çünki Xəzər dənizini suyla təmin edən məhz Volqa çayıdır. Xəzərə suyun 80 faizi Volqa çayı vasitəsilə gəlir. Fəaliyyət Planında konkret olaraq göstərilməlidir ki, hansı ildə Volqadan ötürüləcək suyun miqdarı nə qədər azaldılacaq, yəni Volqadan Xəzərə hansı miqdarda su gələcək və bununla bağlı da Xəzərin suyu nə qədər arta və ya azala bilər. Bu fəaliyyət planı qəbul olunsa, Xəzərin sağlamlaşması mümkün olacaq. Yox əgər qəbul edilməsə, məsələ çox çətindir.

Ekoloq bildirdi ki, Xəzərin dayazlaşmasının digər səbəbləri arasında dənizə çirkab sularının axıdılması, dənizin çirkləndirilməsi, sahilyanı ərazilərdə plansız tikililərin aparılması da var. Ümumən dənizin eko-sistemi sağlamlaşdırılmalıdır.

**"Son illər Xəzər dənizində suyun səviyyəsi sürətlə aşağı düşür. Bu, artıq elmi müzakirə mövzusu deyil, gözlə görünən real təhlükədir".**

Bu barədə isə "Şərq"ə açıqlamasında Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib. Siyasətçi bildirib ki, qlobal iqlim dəyişmələri, çay axınlarının azalması və insan təsirlərinin yaratdığı mənfi nəticələr dünyanın ən böyük qapalı su hövzəsini geri çəkilməyə məcbur edir: "Bu prosesin ən ağır fəsadı isə minillərlə formalaşmış təbii ekosistemin dağılmasıdır. Xəzər nərəkimilər üçün dünyanın ən qiymətli məskənlərindən biridir. Bu balıqların yumurtlama yerləri dayaz sahillərdə yerləşir. Suyun çəkilməsi həmin əraziləri yararsız hala gətirir, balıq ehtiyatlarını azaldır və balıqçılıq təsərrüfatına zərbə vurur. Qamışlıqlar və bataqlıqlar isə su quşlarının əsas sığınacaq yerləridir. Dayazlaşma nəticəsində bu təbii zonalar quruyur, köç yolları pozulur, nadir növlərin sayı kəskin azalır".

**S.Əsədli bəyan edib ki, su kütləsi azaldıqca, dənizin bəzi hissələrində duzluluq səviyyəsi yüksəlir:**

"Şirin suya uyğunlaşmış canlılar üçün bu, ölüm hökmü deməkdir. Bioloji müxtəlifliyin zəifləməsi bütün ekosistemin tarazlığını pozur. Balıqçı kəndlərinin iqtisadi gəlirləri, quş müşahidə turizmi, sahilyanı ərazilərin içməli su mənbələri hamısı təhlükə altındadır. Mütəxəssislər xəbərdarlıq edir ki, əgər prosesin qarşısı alınmazsa, Xəzərin bir çox sahilləri yaxın gələcəkdə yalnız xəritələrdə qalacaq. Xəzəri qorumaq və təkcə su hövzəsini deyil, onun bütün canlı aləmini və təbii həyatını qorumaq deməkdir".

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi






# Korrupsiya dövlətin imicinə zərbə vurur

## Eyni zamanda cəmiyyətin inkişafını da ləngidir

**Dövlət Sərhəd Xidməti aparatında Baş Prokurorluqla birgə "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib. Dövlət Sərhəd Xidmətinin yaydığı məlumatda bildirilir ki, tədbirdə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti və Baş Prokurorluğunun nümayəndələri iştirak edib, mövzu ətrafında fikir və təcrübə mübadiləsi aparılıb.**

Çıxış edənlər korrupsiyanın cəmiyyətin istənilən sahəsində inkişafa mane olan əsas amillərdən biri olduğunu, bu kimi mənfi halların yalnız iqtisadiyyat və sosial həyat üçün deyil, eyni zamanda dövlətin imici və beynəlxalq nüfuzu üçün də ciddi təhlükə yaratdığını vurğulayıb, hüquqi, demokratik dövlət quruculuğu prosesinə zərbə vurmaqla yanaşı, milli və ümumbəşəri dəyərləri də sarsıtdığını, cəmiyyətin mütərəqqi inkişafını ləngitdiyini qeyd ediblər. Bildirilib ki, müstəqillikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə əsası qoyulan korrupsiyaya qarşı mübarizə siyasətinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi nəticəsində bu sahədə mübarizənin hüquqi bazası möhkəmləndirilib, dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin olunması, hesabatlılığın artırılması və ictimai nəzarətin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb. Həyata keçirilən tədbirlər çərçivəsində korrupsiyanın qarşısının alınması məqsədilə preventiv mexanizmlər təkmilləşdirilib, vətəndaş məmnunluğunun və xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm işlər görülüb. Tədbirin sonunda bu sahədə maarifləndirmə, təlim, eləcə də profilaktik tədbirlərin həyata keçirilməsinin vacibliyi vurğulanıb, korrupsiyaya qarşı mübarizəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb. Cəmiyyətin mütərəqqi inkişafına zərbə vuran, vətəndaşların sosial rifah halının pisləşməsinə, insanların müflisləşməsinə səbəb olan həm də mərc oyunlarıdır. Son illərdə mərc oyunlarının onlayn aparılması, rəqəmsallaşmanın verdiyi imkanlardan sui-istifadə edərək insanları maddi çətinliklərlə üz-üzə qoyan mütəşəkkil dəstələrin ifşası hüquq-mühafizə orqanlarının əsas hədəfləri sırasındadır. Daxili İşlər Nazirliyi tərəfindən bu cür hallara qarşı effktiv tədbirlər görülür. Bu günlərdə DİN-in Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən növbəti dəfə bir neçə əməliyyat-texniki tədbir hazırlanaraq həyata keçirilib. Baş İdarəyə sosial şəbəkələrdə açılmış səhifələrdə vətəndaşların onlayn qumar oyunlarına cəlb edilməsi barədə əməliyyat məlumatları daxil olub. Həyata keçirilən tədbirlər nəticəsində Aqil Məmmədzadə və onun başçılıq etdiyi dəstənin digər üzvləri - Orxan Gözəlov, Elmar Gözəlov, Tacir Məmmədzadə, Emil Əmrahlı, həmçinin digər dəstəyə rəhbərlik edən Ülvi Məmmədov saxlanılıblar. Həmin şəxslər ölkə hüdudlarından kənarda yaradılmış və qanunsuz fəaliyyət göstərən mərc və digər qumar oyunlarının təşkilatçıları ilə əlaqə saxlayıb, onlardan "fastloto.com" və digər internet saytlarında təşkil edilmiş qumar oyunlarında iştirak üçün gizli şifrələr əldə ediblər. Daha sonra onlar sosial platformalarda "Kral Kazino" və digər adlar altında virtual kassa yaradaraq onlarla əlaqə saxlayan şəxsləri pul müqabilində qumar oyunlarına cəlb ediblər.

Məhkəmə qərarları əsasında dəstə üzvlərinin istifadə etdikləri gizli ofislər, mənzillər və saxlanc yerlərinə baxış zamanı çoxsaylı elektron sübutlar, bank kartları, xarici ölkələrə məxsus mobil telefon nömrələri və digər maddi sübutlar aşkar olunaraq götürülüb. Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb. İfşa edilən hər iki şəbəkənin başçısı Aqil Məmmədzadə, Ülvi Məmmədov və digərləri barəsində həbsqətimkan tədbiri seçilib. Dəstənin xarici ölkələrdə gizlənən üzvlərinin məsuliyyətə cəlb olunmaları üçün tərəfdaş dövlətlərin hüquq-mühafizə orqanları ilə birgə əməliyyat tədbirləri davam etdirilir.

**Mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev qeyd etdi ki, dövlət orqanları - Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, eləcə də Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi dövlət və vətəndaş maraqlarının təmin edilməsi, cəmiyyətin inkişafına mane olan, dövlətçilik maraqlarına, demokratik dəyərlərə zərbə vuran korrupsiyanın qarşısının alınmasında ciddi fəaliyyət göstərirlər:**

- Xatırlatmaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev korrupsiya ilə mübarizədə vətəndaşların fəallığını əsas sayır. Bunu cənab Prezident çıxışlarında da dəfələrlə vurğulayıb. Vətəndaş olaraq bizim vəzifəmiz korrupsiya halları ilə, eləcə də cəmiyyətdə mənfi hallarla qarşılaşdıqda aidiyyəti qurumları məlumatlandırmaqdır. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 2025-ci ilin birinci yarım ili ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı keçirilmiş əməliyyat müşavirəsində faktlar sadalanıb. Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov görülmüş işlər barədə məlumat verərək bildirib ki, hesabat dövründə Prezident cənab İlham Əliyevin siyasi kursunun əsas prioritetlərindən biri kimi korrupsiyaya qarşı mübarizə tədbirləri daha da gücləndirilib. Bu sahədə ölkədə iqtisadiyyatın liberallaşdırılması, bürokratik maneələrin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin şəffaf və sağlam əsaslarla qurulması istiqamətində ardıcıl hüquqi və institusional islahatlar həyata keçirilib. Bildirilib ki, qeyd olunan dövrdə Baş İdarə tərəfindən vətəndaşların 5713 müraciətinə baxılıb. Bundan başqa, əlaqəli dövlət qurumları ilə birgə yerinə yetirilmiş tədbirlər nəticəsində vətəndaşlar tərəfindən "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərdən böyük əksəriyyətinin müsbət həll edilməsi təmin edilib, zəruri hallarda cinayət-hüquqi tədbirlər görülüb. Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizədə qabaqlayıcı tədbirlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, korrupsiya cinayətlərinə şərait yaradan halların aradan qaldırılması istiqamətində təsir tədbirlərinin tətbiqindən də müvafiq dövr ərzində istifadə edilib, yol verilmiş qanun pozuntularının səbəblərinin müəyyən edilməsi və gələcəkdə bir daha törədilməməsi üçün müxtəlif qurumlara 66 təqdimat göndərilib. Təqdimatlara əsasən həmin qurumların bir sıra işçiləri intizam məsuliyyətinə cəlb edilib və bu kimi digər zəruri tədbirlərin görülməsi təmin olunub. Əməliyyat qurumları tərəfindən 59 cinayət işi başlanıb, keçirilmiş 12 əməliyyat-axtarış tədbiri nəticəsində korrupsiya cinayəti törədən 10 şəxs cinayət başında yaxalanıb, habelə axtarışda olan 7 nəfər saxlanılıb. Baş İdarə tərəfindən 113 şəxs barəsində 72 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 85 şəxs barəsində 54 cinayət işi baxılması üçün məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş cinayət işlərinin mütləq əksəriyyəti üzrə ittiham hökmləri çıxarılıb, qalanları isə hazırda məhkəmə baxışındadır. Hesabat dövrü ərzində istintaqı başa çatdırılmış cinayət işləri üzrə ümumilikdə özgə əmlakına vurulmuş 23 milyon 512 min 325 manat məbləğində maddi ziyandan 5 milyon 634 min 673 manatının ödənilməsi təmin olunub. Zərərin ödənilməsi məqsədilə istintaqı başa çatdırılmış cinayət işləri üzrə 12 milyon 2 min 365 manat məbləğində əmlak üzərinə həbs qoyulması təmin olunub. Hesabat dövründə Baş İdarənin beynəlxalq fəaliyyəti istiqamətində də mühüm nailiyyətlər əldə olunub, bu da Azərbaycanın korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq nüfuzunun daha da artmasıyla nəticələnib. Daxil olmuş müraciətlərə baxılmasının nəticəsi barədə vətəndaşların dəqiq və dolğun şəkildə məlumatlandırılması, "161-Qaynar xətt" əlaqə mərkəzinin fəaliyyətinin daha da gücləndirilməsi, korrupsiyaya daha çox məruz qalan sahələr üzrə davamlı təhlillərin aparılması istiqamətlərində işlərin davam etdirilməsinin vacibliyi xüsusi qeyd olunub. Bildirilib ki, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə nəzarət daimi diqqətdə saxlanılmalı, cinayət işlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsi, əmlakın bərpası və qətimkan tədbirlərinin səmərəli tətbiqinə xüsusi önəm verilməlidir. O, bu kimi məsələlər ətrafında aparılan geniş təhlillərdən sonra qarşıdakı dövr üçün müvafiq tapşırıq və tövsiyələrini müşavirə iştirakçılarına verib. Bütün bunlar ölkədə korrupsiyaya qarşı mübarizənin daha da gücləndiyini, vətəndaşları narahat edən məsələlərin qısa zamanda həllini tapması üçün səylərin artırıldığını göstərir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Paşinyan seçkilərə radikal müxalifətsiz getmək istəyir

## Ermənistanda növbəti ilin fevralında növbədənkənar seçkilərin elan olunması ehtimalı yüksəlir

**Son günlərdə Ermənistanın Gümrü şəhərində yerləşən 102-ci Rusiya hərbi bazasının fəaliyyəti əhəmiyyətli dərəcədə aktivləşib. İddia olunur ki, Rusiyanın əsas hədəflərindən biri Ermənistanın Baş naziri Nikol Paşinyanı vəzifədən uzaqlaşdırmaqdır. Qeyd olunur ki, Moskva İrəvan üzərindəki birbaşa təsirini itirdikdən sonra, ölkədə süni şəkildə yaradılmış böhran vasitəsilə bu təsiri yenidən bərpa etməyə çalışır.**

Bu böhrana Ermənistan ərazisində müxtəlif təxribatların daxil olması da ehtimal edilir. Bəzi mənbələr hətta 2014-cü ildə Krımda baş verən hadisələrlə paralellər apararaq, mümkün sərt müdaxilənin mümkünlüyündən də bəhs edirlər. Xaos şəraitində Paşinyana alternativ kimi keçmiş prezidentlər - Robert Koçaryan və Serj Sarkisyanın adları ön planda çəkilir. Rusiyapərəst mövqeləri ilə tanınan bu siyasətçilərin "ölkəni xilas etmək" bəhanəsi ilə yenidən səhnəyə gətirilməsi ssenarisi istisna edilmir. Hazırda Ermənistan həm daxili, həm də xarici baxımdan çətin vəziyyətdədir və geosiyasi qarşıdurmalar meydanına çevrilib. Xarici oyunçular, xüsusilə də Rusiya, burada ya öz mövqelərini möhkəmləndirməyə, ya da itirdiklərini geri qaytarmağa çalışır. Buna görə də Ermənistanda dövlət çevrilişi ehtimalı və bu prosesdə Rusiyanın rolu müzakirə olunur.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Ermənistanda gələn ilin ilk ayında növbədənkənar seçkilərin keçirilməsi gözlənilir. Ekspert vurğulayıb ki, Baş nazir Nikol Paşinyan seçkilərə hazırlıq mərhələsində müxalifətə qarşı daha sərt tədbirlər həyata keçirməkdədir:** "İrəvan şəhər məhkəməsinin qərarı ilə Rusiyada fəaliyyət göstərən iş adamı Ara Abramyana məxsus torpaq sahəsi müsadirə edilib. Ara Abramyan "Taşir" şirkətlər qrupunun rəhbəri və hazırda həbsdə olan Samvel Karapetyanın yaxın müttəfiqi kimi tanınır. Rusiya ilə bağlı iş adamlarının Ermənistan siyasətinə təsir imkanlarını məhdudlaşdırmaq üçün Paşinyan onları ya həbs edir, ya da əmlaklarını əlindən alır. Hətta Gümrü şəhərinin yeni seçilmiş meri də həbslə hədələnir. Hazırda Nikol Paşinyanın qarşısında duran əsas məqsəd Erməni Apostol Kilsəsinin başçısı, katolikos İkinci Qaregini istefaya məcbur etməkdir. İkinci Qaregin birləşmiş müxalifətin ideoloqu və Moskva tərəfindən dəstəklənən dini lider kimi çıxış edir. Onun təşəbbüsü ilə Kilsə siyasi proseslərə müdaxilə edərək Paşinyanın yenidən seçilməsinə qarşı çıxır".

**Analitik qeyd edib ki, iki həftədir ki, Paşinyan öz tərəfdarlarını Eçmiədzinə toplayaraq İkinci Qaregini istefaya məcbur etməyə çalışır:** "Paşinyan bir neçə dəfə bu qərarı versə də, Rusiya təzyiqləri səbəbindən geri çəkilib. Lakin payız aylarında Kilsəyə təzyiqlərin artacağı və Paşinyanın qırmızı xətləri keçərək İkinci Qaregini vəzifədən uzaqlaşdıracağı ehtimalı böyükdür. Bu proseslə yanaşı, Paşinyan Kilsənin nüfuzunu sarsıtmaq məqsədilə kütləvi informasiya vasitələrindən istifadə edir. Onun çıxışları nəticəsində erməni cəmiyyətində Kilsəyə olan etimad hiss olunacaq dərəcədə zəifləyib. İkinci Qaregini baş keşişlikdən uzaqlaşdırmaqla Paşinyan daxildə müxalifəti tamamilə sıradan çıxarmış olacaq. Beləliklə, o, növbədənkənar seçkilərə radikal müxalifətsiz getməyi planlaşdırır. Hadisələrin inkişafı Paşinyanın xeyrinə işləyir və seçkilərdə onun qalib gəlməsi real görünür. Əgər payızda İkinci Qaregin vəzifədən kənarlaşdırılarsa, Ermənistanda 2026-cı ilin fevralında növbədənkənar seçkilərin elan olunması ehtimalı yüksəlir. Seçkilərdən sonra Ermənistanda yeni Konstitusiya referendumu keçirilə bilər. Düşünürəm, həmin ilin yayında Azərbaycanla sülh müqaviləsinin imzalanması mümkün olacaq.

Beləliklə, Ermənistanda seçkilərdən sonrakı dövr Cənubi Qafqazda yeni siyasi reallıqların formalaşmasına və regionda uzunmüddətli sülhün təmin olunmasına zəmin yarada bilər".

**İsmayıl Qocayev**

# Geomaqnit qasırğa

## Günəşdə baş verənlər təbii-fiziki proseslərlə əlaqəlidir



**Günəşdə ötən günlərdə baş vermiş güclü partlayışlar cümə günü Yerə təsir etməyə başlayacaq. Bu, uzunmüddətli geomaqnit qasırğasına səbəb ola bilər.**

Oxu.Az xəbər verir ki, bu barədə Rusiya Elmlər Akademiyasının Kosmik Tədqiqatlar İnstitutunun "Telegram" kanalında məlumat verilib.

Qeyd edilir ki, Yer orbitinə yaxın günəş küləyinin sürəti hazırda təqribən 400 km/s təşkil edir, cümə-şənbə gününə qədər isə 600-700 km/s-ə qədər artacaq.

**Professor Adil Qeybulla "Şərq"ə açıqlamasında deyib ki, geomaqnit qasırğası adlanan hadisələr Günəşdə baş verən təbii-fiziki proseslərlə əlaqəlidir:**

"Ümumilikdə Yer kürəsini kosmik maqnit sahəsinin təsirlərindən və kosmik mənşəli radioaktiv şüalanmadan qoruyan əsas təbəqə onun atmosferidir. Atmosferi nə qədər qoruyucu funksiyaya malik olsa da, müəyyən miqdarda radioaktiv şüalar yenə də Yer səthinə çata bilir. Lakin bu şüalanma həyati təhlükə doğuracaq səviyyədə deyil və bu səbəbdən canlı orqanizmlər Yer kürəsində mövcudluğunu qoruyub saxlaya bilir. Bəzən Günəşin daxili qatlarında güclü termonüvə reaksiyaları baş verir və bu proses nəticəsində yaranan elektromaqnit dalğaları Yerə qədər çatır. Bu zaman Yer kürəsinin elektromaqnit sahəsində müəyyən dəyişikliklər müşahidə oluna bilər. Belə dəyişikliklər xüsusilə meteohəssas insanlarda bir sıra fizioloji reaksiyalarla nəticələnə bilər. Məsələn, sinir sistemi, oynaqlarla bağlı problemlər, qan təzyiqinin qeyri-sabitliyi, qanda şəkərin səviyyəsinin artması, bronxial xəstəliklərdən əziyyət çəkən şəxslərdə spazmların güclənməsi və digər simptomlar müşahidə edilə bilər. Bu səbəbdən meteohəssas şəxslər həkimləri ilə mütəmadi məsləhətləşməli və sağlamlıqlarına nəzarət etməlidirlər. Əslində, maqnit qasırğaları Yer kürəsinin mövcud olduğu milyardlarla illik zaman kəsiyində dəfələrlə baş verib. Yer kürəsinin təqribi yaşı dörd milyard il olaraq qəbul olunur. Bunu nəzərə alaraq deyə bilərik ki, uzun zaman ərzində onun səthində çoxsaylı geofiziki və kosmik proseslər baş verib. Bu cür hadisələr tarixi və geoloji baxımdan təbii proseslər hesab olunur və gələcəkdə də baş verməyə davam edəcək. Atmosferin mövcudluğu Yer kürəsində həyat üçün olduqca vacib şərtdir. Atmosfer həm oksigen dövranını təmin edir, həm də kosmik radiasiyadan qoruyucu baryer funksiyasını yerinə yetirir. Əgər atmosfer mövcud olmasaydı, Yer kürəsində heç bir canlı orqanizm sağ qala bilməzdi".

**Fidan Həmişəyeva**

# Bir kod, bir ömürdür

## Bir ixtisas seçimi gəncin taleyini dəyişə bilər



### Doğru seçim etməyən gənclər peşman olur

**11 avqustdan ixtisas seçimi başlayır. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi bütün ixtisas qrupları üzrə 2025-ci il avqustun 11-dən 19-dək olan müddətdə aparılacaq.**

Kağız üzərində bu proses sadəcə bir neçə kodun düzgün sıralanmasından ibarət kimi görünsə də, əslində bu, hər bir gəncin və dolayısıyla ölkənin gələcəyinə verilən ən mühüm strateji qərarlardan biridir.

10 il əvvəl proses abituryentlər üçün adi bir hal olsa da, bu gün ixtisas seçimi, imtahan nəticələri qədər stress və qeyri-müəyyənlik yaradan bir mərhələyə çevrilib. Valideynlərin təzyiqi, müəllimlərin yönləndirmələri, gənclərin arzuları və ekspert tövsiyələri çox vaxt bir-biri ilə toqquşur və nəticədə abituriyentlər ciddi psixoloji yüklə üz-üzə qalırlar.

İxtisas seçimi sadəcə ərizə doldurmaq deyil axı. Bu, bir gəncin, ölkənin gələcəyinə verilən strateji qərardır. Bu qərarı savadsız şəkildə və informasiyasız mühitdə formalaşdırmaq, təkcə bir ailənin yox, bütöv bir cəmiyyətin gələcəyini risk altına atmaq deməkdir.

Bəli, doğru ixtisas seçimi, insanın gələcək həyat keyfiyyətini, maddi rifahını, psixoloji durumunu və ictimai mövqeyini formalaşdıran əsas faktorlardan biridir.

Təəssüf ki, əksər abituriyentin ixtisas seçimi şəxsi maraq və bacarıqlardan daha çox, yaxın çevrənin təsiri, cəmiyyətin stereotipləri və ya ötəri populyarlıq amillərinə əsaslanır.

XXI əsrin əmək bazarı isə köklü şəkildə dəyişib. Artıq təkcə akademik bilik yetərli deyil, multidissiplinar bacarıqlar, rəqəmsal savadlılıq, çevik düşüncə və adaptasiya qabiliyyəti tələb olunur. Təəssüf ki, bir çox gənc bu reallığı deyil, ətraf mühitin təzyiqini əsas götürərək qərar verir. Nəticədə isə cəmiyyət, öz resurslarını düzgün dəyərləndirə bilməyən və potensialı itirilmiş nəsillərlə qarşı-qarşıya qalır.

Bu mərhələdə verilən səhv qərar sonradan illərlə vaxt, maddi və mənəvi itkiyə səbəb olur.

İqtisadçı-ekspert Eldəniz Əmirovun fikrincə, ixtisas seçimi gənclər üçün bir ömür boyu davam edəcək karyera mübarizəsinin start nöqtəsidir. Doğru ixtisası seçən gənc əmək bazarına rəqiblərindən 3-0 öndə çıxır: "Çox təəssüf ki, yüksək bal toplamış gənclərin gələcəyin ixtisaslarının doğru proqnoz edilə bilməməsi səbəbindən yanlış ixtisas seçimi etməsi halları kifayət qədər çoxdur. Bu isə ömrü boyu insana çox baha başa gəlir. Ona görə də seçim məsləhəti verən adam gələcəyin əmək bazarını doğru təhlil etməyi bacaran adam olmalıdır".

**Təhsil İşçilərinin Həmrəyliyi Alyansının (TİHA) sədri, təhsil eksperti Əmrah Həsənli isə "Şərq"ə açıqlamasında deyib ki, əvvəllər ixtisas seçimi abituriyent üçün sadəcə bir kağız üzərində kodları qeyd etmə prosesi idisə, bu gün artıq həmin kodların arxasında bir insanın gələcək həyatı, karyera yolu, maddi rifahı və psixoloji rahatlığı dayanır:**

"Əslində, gəncin yalnızca ali təhsil müəssisəsinə daxil olub-olmaması yox, daha çox harada və hansı sahədə təhsil alacağı onun cəmiyyətə hansı rolda inteqrasiya olunacağını müəyyənləşdirir. Məhz buna görə də ixtisas seçimi prosesi imtahanın özü qədər vacib və həssas mərhələyə çevrilib. Gənclərin ixtisas seçimi zamanı qarşılaşdığı üçtərəfli gərginlik - valideyn təzyiqi, müəllim yönləndirməsi və şəxsi maraq - çox zaman bir-birinə zidd mövqelərin toqquşması ilə nəticələnir. Valideyn övladının "sabit və yaxşı maaşlı" sahədə çalışmasını istəyir, müəllim onu daha çox bal toplaya biləcəyi ixtisasa yönəldir, gənc isə çox zaman içindəki yaradıcı potensialı və ya fərdi arzuları ilə çıxış edir. Bu zaman "kim haqlıdır?" sualı yox, "ortaq yol haradadır?" sualı önə çıxmalıdır".

**Ə.Həsənlinin sözlərinə görə, ixtisas seçimi zamanı ən vacib olan məsələ balans yaratmaqdır. Nə yalnız arzu, nə yalnız tələbat, nə də yalnız bal əsas götürülməlidir:**

"Gəncin maraq dairəsi, şəxsiyyət tipi, intellektual bacarıqları və psixoloji xüsusiyyətləri ilə əmək bazarının reallıqları və dəyişən dinamika arasında əlaqə qurmaq vacibdir. Çünki sadəcə bugünkü tələbatı əsas götürərək verilən qərar sabah işsiz bir mütəxəssisə çevrilə bilər, eyni zamanda yalnız şəxsi arzuya əsaslanan seçim də peşəkar məyusluqla nəticələnə bilər. Valideynlərin bu prosesə müdaxiləsi təbiidir, çünki onlar övladlarının gələcəyindən narahatdırlar. Amma müdaxilə ilə istiqamətləndirmə arasında fərq var. Valideyn də, müəllim də, mütəxəssis də gəncin seçimində yol yoldaşı olmalıdır, qərarverici yox".

*Son illərdə ixtisas seçiminin ödənişli konsultasiya formasında təklif olunmasına gəldikdə isə ekspert deyib ki, bu, cəmiyyətin birmənalı qarşılamadığı məsələlərdən biridir:*

"Təəssüf ki, bu sahədə qeyri-peşəkar yanaşmalar, şişirdilmiş ifadələr, ailələrin emosional durumundan sui-istifadə halları da az deyil. Ancaq bu, mütəxəssis dəstəyinin ümumilikdə əhəmiyyətsiz olduğunu deməyə əsas vermir. Əksinə, doğru strukturlaşdırılmış və peşə yönümlü testlərə, psixoloji diaqnostikaya, əmək bazarı təhlilinə əsaslanan ixtisas yönləndirilməsi gəncin düzgün qərar verməsinə əhəmiyyətli töhfə verir. Sadəcə olaraq ailələr bu xidməti seçərkən onu təqdim edən şəxsin təhsilini, təcrübəsini və yanaşma metodologiyasını ciddi araşdırmalıdırlar. Nəticə etibarilə, ixtisas seçimi bir gəncin gələcək həyatının, cəmiyyət içində tutacağı yerin, iqtisadi və sosial rifahının bəlirləndiyi həssas prosesdir. Bu qərar heç vaxt tələsik, emosional və ya yalnız bir tərəfin diktəsi ilə verilməməlidir. Gərəkirsə, bu mərhələdə peşəkar dəstəyə müraciət olunmalı, amma bu dəstək informativ və istiqamətverici xarakter daşımalıdır, manipulyativ və qorxu əsasında yox. Gənclərin düzgün istiqamət alması üçün isə ilk növbədə onlara güvənməli, sonra da onları öz qərarlarının məsuliyyətini daşımağa hazırlamalıyıq".

**Şeymən Bayramova**

---

### Təbrik edirik!



8 avqust **Fateh Fərhadoğlunun** doğum günüdür. Dünyaya gəlişi ilə bütün doğmalarını sevindirən və özü də onların sevincinə çevrilən Fateh kişini əzizləri, xüsusilə, Nigar, Aysu, Atilla və Nərgiz ürəkdən təbrik edirlər. Onun sağlam, atalı-analı və adına layiq böyüməsini Allahdan arzu edirlər.

**Böyüdükcə özüylə**
**böyüyür sevinci də,**
**Nəvə varlığı durur -**
**Lap başda, birincidə!**

**Özünü sevdirməyi**
**Məharətlə bacarır.**
**Sevildikcə hər gün o,**
**İynə boyda ucalır!**

**Dəyişib dünyamızı**
**Sevgimizi fəth etdi.**
**Adı da özü kimi -**
**Bu kişinin Fatehdi!**

***Dünya boyda sevinc yaşayan babası Əbülfət Mədətoğlu***

---

### Elan

**"Bakı Hərrac Mərkəzi" MMC**
**08.08.2025 il**

Lot A082/25.Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Məmmədov küçəsi, giriş 101, M1,m1 ünvanında yerləşən, ümumi sahəsi 41.30 m2olan mənzil. İlkin satış qiyməti 84750 manat. Açıq hərrac 03sentyabr 2025 il tarixdə saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 5 faizi həcmində beh hərrac tarixinə ən azı 5 gün qalmış hərrac təşkilatına nağd və ya köçürmə yolu ilə ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri. Ünvan: Bakı şəh, Səbail ray, Badamdar qəsəbəsi, Badamdar şossesi 27. ("AVİS" aptekin arxası). Tel: 050-206-66-67, rəsmi sayt: http://e-lot.az

Quliyeva Aynur Vaqif qızına məxsus Xırdalan şəhəri, "AAAF Park" yaşayış kompleksi, küçə 22, bina 2, mənzil 9-un müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Universitetinin 3-cü kurs tələbəsi Məmmədova Firuzə Raci qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Universitetinin 3-cü kurs tələbəsi Şiralizadə Səmayə Rəşaiq qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Qasımov Kamran Aslan oğlunun adına məxsus traktorun pravası (AA 3821696) itdiyi üçün etibarsız sayılır.

---

# Zərərli vərdişin sonu əməliyyatla bitdi

## Uşağın mədəsindən çıxan saç topası təhlükəli psixoloji problemin siqnalıdır



**30.07.2025-ci il tarixində 05.08.2016-cı il təvəllüdlü Qax rayon sakini (qadın cinsli) ürəkbulanma, iştahsızlıq və qarın ağrısı şikayətləri ilə Kliniki Tibbi Mərkəzə yerləşdirilib.**

Bu barədə Kliniki Tibbi Mərkəz məlumat yayıb.

Bildirilib ki, aparılan radioloji müayinələrdən sonra ona tirixofagiya diaqnozu (mədəsində saç kütləsi bezoar) qoyulub və Uşaq Cərrahiyyə şöbəsinə yerləşdirilib.

9 yaşlı azyaşlının mədəsində aparılan cərrahi əməliyyat uğurla bitib və saç kütləsi xaric edilib.

Hazırda onun müalicəsi Uşaq Cərrahiyyə şöbəsində davam etdirilir, vəziyyəti stabil qiymətləndirilir.

Qeyd edək ki, tirixofagiya adlandırılan xəstəlik, əslində, psixoloji problemdir. Uşaqlar öz saçlarını və ya yerə düşən tükləri götürüb yeyirlər. Bu zaman mədədə tük topası yığılır, tükdən ibarət böyük kütlə əmələ gəlir. Kütlə mədəni tam tutduqda artıq qidalana bilməmək, qusma və mədə nahiyəsində şişkinlik kimi əlamətlər ortaya çıxır.

**Pediatr Vaqif Qarayev "Şərq"ə bildirdi ki, bu məsələdə iki ehtimal mövcuddur:**

"Birincisi, uşağın ruhi-psixoloji vəziyyətində ciddi pozuntu ola bilər. Bu səbəbdən də o nə etdiyini dərk etmir. İkincisi isə zərərli davranışa meyilliliyin mövcudluğu ehtimalıdır. Əgər uşağın psixoloji vəziyyəti normaldırsa, valideynin əsas vəzifəsi onu bu vərdişdən uzaqlaşdırmaq və müvafiq davranış korreksiyası həyata keçirməkdir. Əgər psixiatrik pozuntu təsbit olunarsa, uşaq ixtisaslaşmış psixiatr və ya klinik psixoloq nəzarətinə verilməlidir. Həmçinin psixoterapevtik və zəruri hallarda farmakoloji müdaxilə ilə müalicə olunmalıdır. Belə hallarda trixobezoar formalaşdığı təqdirdə isə təcili şəkildə cərrahi müdaxilə tələb olunur. Bu kimi hallar erkən diaqnostika, valideyn maarifləndirilməsi və məktəb-ailə-psixoloq əməkdaşlığının vacibliyini bir daha önə çıxarır. Uşaq psixologiyasında kompulsiv davranışların yaranması çox zaman emosional ehtiyacların qarşılanmaması ilə əlaqədardır. Hər hansı qeyri-adekvat davranışın arxasında kompleks psixoloji faktorlar dayanır və bu hallar sadəcə simptom kimi deyil, dərin səbəblərin göstəricisi kimi qiymətləndirilməlidir. Profilaktik tədbirlər görülmədiyi təqdirdə, bu cür vərdişlər daha ağır klinik vəziyyətlərə gətirib çıxara bilər".

**Fidan Həmişəyeva**

---




### "Nar" ən yüksək nəticə göstərən abituriyentləri mükafatlandıracaq

**Ölkənin sərfəli mobil operatoru "Nar" dövlət qəbul imtahanlarında ümumi qruplar üzrə ən yüksək nəticə toplayan ilk 10 abituriyenti mükafatlandıracağını elan edib.**

Belə ki, mobil operator tərəfindən tələbələrə daha rahat ünsiyyət üçün müasir smartfonlar, prestijli "Nar"mobil nömrələri və 700 AZN məbləğində balans təqdim ediləcək. Layihənin məqsədi universitet həyatına yeni başlayan gənclərin nailiyyətlərinə töhfə vermək və ali təhsilə daha yüksək həvəslə yanaşmalarına dəstək olmaqdır.

Xatırladaq ki, "Nar"ın bu ənənəsi 2018-ci ildən qəbul imtahanlarında maksimal bal yığan tələbələrin mükafatlandırılması ilə başlayıb. Təhsil hər bir sahə üzrə dayanıqlı inkişafın və səmərəli fəaliyyətin başlıca zəmanəti olduğundan elmin inkişafına dəstək "Nar"ın əsas korporativ sosial məsuliyyət istiqamətlərindən biridir. "Nar"ın dəstəyi ilə təhsilin inkişafına yönəlmiş sosial layihələr haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

*Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.*

---

# Tibb tarixinə yazılmış utanc

## Qul qadınlar üzərində narkozsuz cərrahiyə sınaqları aparılıb

*(Əvvəli səh: 8-də)*



**Sims 1845-ci ildə cərrahi üsulları sınaqdan keçirməyə başlayıb. Bununla belə, ağdərili qadınların bu müalicəyə müraciət edə bilməsini təmin etmək üçün o, zənci qul qadınlar üzərində təcrübə keçirməyə qərar verib.**

O, qulları sahiblərindən "icarəyə götürərək" və təcrübə zamanı onlara praktik olaraq sahiblik edərək, narkozsuz əməliyyat edərək onlarla qəddar davranıb. Simsin əməliyyat etdiyi ilk xəstə 18 yaşlı Lüsi olub. Əməliyyatlar zamanı xəstələrin lüt soyundurulması, diz çökmələri, dirsəklərinə söykənmələri, başları əllərinin üzərinə qoyulması tələb olunurdu. Lüsinin saatlarla davam edən, anesteziyasız əməliyyat zamanı qışqırdığı və ağladığı qeyd edildi. Sims bu anı belə təsvir edib: "Lüsinin ağrıları dözülməz idi. Sidik kisəsindən sidiyi çıxarmaq üçün süngərdən istifadə etdik. Amma o, çox xəstələndi və sonda qan zəhərlənməsinə tutuldu. Mən onun öləcəyini düşünürdüm. Əməliyyatın təsirindən tam sağalması üçün iki-üç ay çəkdi". Daha sonra o, Anarça adlı 17 yaşlı kəniz qadın üzərində 30 əməliyyat keçirib. Dörd illik təcrübədən sonra o, nəhayət öz metodunu "təkmilləşdirdiyinə" inanırdı. Bundan sonra o, tibb aləmində o vaxtlar yeni hesab edilən anesteziyadan ağ qadınlar üzərində istifadə etməyə başladı.

Bəzi həkimlər anesteziyadan ehtiyatlı olsalar da, Simsin qaradərili qadınlara anesteziya və ya hər hansı digər uyuşdurucu vasitə tətbiq etməmək qərarı onun ağdərili qadınlar qədər ağrı hiss etmədiyinə dair irqçi inancından irəli gəlirdi.

1850-ci illərdə Sims Nyu-Yorka köçdü və ilk qadın xəstəxanasını açdı və burada xəstələri üzərində mübahisəli tibbi müalicə üsullarını sınaqdan keçirməyə davam etdi. Simsin xəstələrindən biri öləndə problemi onun metodlarında deyil, xəstədə axtarırdı. Bu illər ərzində J.Marion Sims tibb sahəsində görkəmli şəxsiyyət və tibb sahəsində qabaqcıl şəxs kimi tanınıb. Və heykəlləri Nyu-Yorkun Mərkəzi Parkı, Cənubi Karolina ştatının kapitoli və Filadelfiyadakı keçmiş tibb məktəbi Cefferson Universiteti də daxil olmaqla çoxsaylı yerlərdə ucaldılıb. Lakin onun istifadə etdiyi üsullar zamanla həm tibb ictimaiyyəti, həm də ictimai fəallar tərəfindən tənqid olunaraq gün üzünə çıxarıldıqdan sonra doktor Simsin heykəllərinin bir-bir qaldırılmasına başlanıb. Ən son, 2018-ci ildə Mərkəzi Parkda yerləşən sonuncu Doktor Sims heykəli qranit postamentindən götürülüb. Heykəlin Simsin dəfn olunduğu Bruklindəki "Green-Wood" qəbiristanlığına qoyulacağı açıqlanıb. Qərara alınıb ki, heykəl Simsin iradəsinə zidd olaraq qullar üzərində təcrübə aparıldığını bildirən lövhə ilə birlikdə yeni yerində nümayiş etdirilsin.

**Məlahət**

---

**Təsisçi: "Şərq Media Qrup" MMC**
**Baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Nihat Müzəffər, Şəhanə Ziyad, Aynur Babazadə, Fidan Həmişəyeva, Yusif Sultanoğlu

**Texniki heyət:**
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Fazilə Məmmədova

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur**

**"Şərq Media Qrup" MMC-yə daxildir:**
**"Şərq" qəzeti və sherg.az saytı**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi:**
**Kapital Bank ASC Yasamal filialı**
**Kod: 200037**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T.: AIIBAZ2XXXX**
**AZM hesab nömrəsi:**
**AZ74AIIB400500G9441595487103**
**VÖEN 1307632991**

**Tirajı: 1500 Sifariş: 1663**



## Türkiyə vətəndaşlığını qəbul etdi

Rusiya Sofiyaya hiddətləndi

**Rusiyalı yeddiqat atlet Sofiya Yakuşina, idman karyerasını Türkiyədə davam etdirmək qərarına gəlib və Türkiyə vətəndaşlığını qəbul edib. O, Türkiyə Gənclər və İdman Nazirliyinin dəvət proqramı çərçivəsində 19 yaşında devşirilərək Türkiyə yığmasında çıxış edəcək.**

2024-cü ildə Rusiya Atletika Çempionatında gümüş medal qazanan Yakuşinanın bu qərarı Rusiyanın sərt reaksiyasına səbəb olub. Rusiya tərəfi onun Türkiyəni seçməsini qəbulolunmaz sayaraq, "Yakuşinanı biz yetişdirmişik, təlim və məşq xərclərini Türkiyə ödəməlidir" deyə açıqlama verib.

*Bildirilir ki, Rusiyada bəzi hüquqşünaslar məsələni beynəlxalq hüquq çərçivəsində araşdırmağa başlayıblar.*

Turan

## 20 yaşında öz ölkəsini qurdu

Bayrağı, konstitusiyası və 400 vətəndaşı var!



**Gənclərin əksəriyyəti gələcəklə bağlı adi arzular qurur: yaxşı bir iş, gözəl ev, bəlkə bir az da səyahət... Amma Böyük Britaniyadan olan Daniel Cekson üçün bu kifayət deyil. Onun arzusu fərqlidi.**

O, öz ölkəsini yaratmaq istəyirdi. Bu uşaqlıq arzusu illər sonra gerçəyə çevrildi.

"Şərq" xəbər verir ki, Cekson 14 yaşında dostları ilə zarafatla başladığı bu ideya üzərində işləməyə davam etdi. Beş il sonra, 2019-cu ildə, 20 yaşında olarkən Dunay çayı sahilində yerləşən, heç bir dövlətə məxsus olmayan kiçik bir torpaq sahəsini fürsət kimi gördü. Xorvatiya ilə Serbiya arasında sərhəd mübahisəsi səbəbindən bu ərazi heç bir ölkəyə aid deyildi. Cekson buraya "Verdis" adını verdi, bayrağını hazırladı, qanunlarını yazdı və özünü "prezident" elan etdi. Beləcə, "Verdis Azad Respublikası" yaradılmış oldu.

Yarım kvadrat kilometr ərazisi olan bu kiçik "ölkənin" bu gün 400-ə yaxın rəsmi vətəndaşı var. Minlərlə insan isə vətəndaşlıq üçün müraciət edib. Rəsmi dillər: ingilis dili, xorvat dili və serb dilidir. Pul vahidi isə avrodur. Lakin Verdisə getmək asan deyil - ora yalnız Xorvatiyanın Osiyek şəhərindən qayıqla çatmaq mümkündür.

Daniel Cekson dolanışığını videooyunlar üçün dizaynlar hazırlamaqla təmin edir. Amma onun əsas ehtirası Verdisdir. O deyir ki, bu prosesdə siyasət və insan təbiəti haqqında çox şey öyrənib.

Amma bu xəyal hər kəsi sevindirmədi. Ötən il Xorvatiya polisi Cekson və bir neçə nəfəri Verdis ərazisində düşərgə qurarkən saxladı. Rəsmi səbəb açıqlanmasa da, qrup Xorvatiyadan deportasiya olundu və ölkəyə girişlərinə qadağa qoyuldu. Ceksonun fikrincə, rəsmilər onu təhlükə kimi görür.

Hazırda Cekson Verdisi sürgündə - Serbiyanın paytaxtı Belqraddan idarə edir. Serb rəsmilərinin daha dözümlü olduğunu düşünür. Ən böyük arzusu bir gün Verdisə qayıdıb orada tam zamanlı yaşamaqdır. O gün gəldikdə isə seçkilər keçirəcəyini və prezidentlikdən çəkiləcəyini deyir: "Mən hakimiyyət həvəsində deyiləm. Mən qalıcı bir sistem qurmaq istəyirəm".

Turan

## 4 milyon ev boş qalıb

Hökumət çarə axtarır



**Yaponiya vətəndaşlarının sayı 2024-cü ildə rekord məbləğdə azalıb.**

Bu azalma rəsmi məlumatlarda əksini tapıb. Ölkə xroniki olaraq aşağı doğum səviyyəsini bərpa etmək səylərini davam etdirir. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, inkişaf etmiş ölkələrdən bir çoxu aşağı doğum səviyyəsi ilə mübarizə aparır, lakin Yaponiyada bu problem xüsusilə kəskindir. Baş nazir Şigeru İşiba vəziyyəti "səssiz fövqəladə vəziyyət" kimi xarakterizə etdi və daha çevik iş saatları və pulsuz uşaq baxımı kimi ailə dostu tədbirlərlə bu tendensiyanın qarşısını alacağına söz verib. Ötən il Yaponiya əhalisi 0,75 faiz, 908 574 nəfər azalaraq 120 065 000 nəfərə düşüb. Daxili İşlər Nazirliyinin açıqladığı məlumatlara görə, bu azalma 1968-ci ildə başlayan və ardıcıl 16 il davam edən sorğular seriyasında qeydə alınan ən böyük azalma olub. Bunun əksinə olaraq, Yaponiyada əcnəbi sakinlərin sayı rekordların başladığı 2013-cü ildən bəri ən yüksək səviyyəyə çatıb. 2025-ci il yanvarın 1-nə ölkədə 3,67 milyon əcnəbi yaşayırdı; Bu, ümumi əhalinin təxminən 3 faizinə bərabərdir. Yaşa görə 65 və yuxarı yaşda olan Yaponiya vətəndaşları əhalinin təxminən 30 faizini, 15-64 yaşlılar isə 60 faizini təşkil edir. Hər iki qrupda əvvəlki illə müqayisədə cüzi artım müşahidə olunub. Dünya Bankının məlumatına görə, Yaponiya Monakodan sonra dünyanın ən yaşlı ikinci əhalisinə malikdir. Əhalinin azalması kənd icmalarına da dərindən təsir edir. Hökumətin ötən il açıqladığı məlumatlara görə, son 20 ildə ölkədə tərk edilmiş evlərin sayı təxminən dörd milyona çatıb. Bu evlərin əksəriyyəti böyük şəhərlərdə yaşayan və əmlakı qohumlarından miras almış insanlara məxsusdur. Lakin bu şəxslər çox vaxt evlərini təmir edə bilmirlər və ya bunu etmək istəmirlər.

Məlahət







# Tibb tarixinə yazılmış utanc

Qul qadınlar üzərində narkozsuz cərrahiyə sınaqları aparılıb

**"Müasir ginekologiyanın atası" kimi tanınan doktor Ceyms Marion Sims qadınların reproduktiv sağlamlığı üçün qabaqcıl cərrahi üsullar və alətlər kəşf etməsiylə məşhurdur. O, 1876-cı ildə Amerika Tibb Assosiasiyasının və 1880-ci ildə təsisçilərindən biri olduğu Amerika Ginekologiya Assosiasiyasının prezidenti təyin edilib.**

19-cu əsrdə iz qoymuş bu nüfuzlu şəxsiyyətin heykəlləri illər boyu bütün ABŞ-də qürurla nümayiş etdirilib. Lakin Simsin aldatma və araşdırmalarının arxasında duran qaranlıq həqiqətlər əsrlər sonra üzə çıxıb və heykəlləri bir-bir qaldırılıb. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Sims ginekologiya üzrə xüsusi təlimə malik olmayıb. Onun ginekologiyaya marağı atdan yıxılan birisinin çanaq və bel ağrılarını müalicə etməsiylə başlayıb. Doktor Sims vaginal genişlənmə və müayinə üçün istifadə edilən vaginal spekulumu icad edib. O, həmçinin 19-cu əsrdə doğuş zamanı adi bir ağırlaşma olan vezikovaginal fistulanın bərpası üçün cərrahi üsul kəşf edib.

(Davamı səh: 7-də)

Məlahət



# İstanbulda Cennifer Lopezi mağazaya buraxmadılar

## İşçi ilə bağlı qərar verilib

**Amerikalı müğənni Cennifer Lopez, "Up All Night: Live in 2025" turnesi çərçivəsində ötən axşam İstanbul Yenikapıda konsert verib. VIP biletlər 10-18 min TL arası satılıb və İstanbulun digər şəhərlərlə müqayisədə daha ucuz olması diqqət çəkib.**

"Şərq" xəbər verir ki, konsertdən bir gün əvvəl İstanbula gələn Cennifer Lopez "İstinye Park" ticarət mərkəzinə gedib. Ancaq "Chanel" mağazasının mühafizəçisi onu "Mağaza doludur" deyərək içəri buraxmayıb. Pandemiya dövründən bu yana "Chanel"in tətbiq etdiyi "məhdud sayda müştəri qəbul etmə" siyasətinə uyğun hərəkət edən işçi ilə bağlı hər hansı cəza tədbiri görülmədiyi bildirilib.



Cennifer Lopezin 40 min tamaşaçı topladığı konsertində, bir neçə gün əvvəl eyni məkanda baş verən Castin Timberlekin konsertindəki kimi izdiham yaşanmadı. Təxminən 1500 nəfərlik heyət, tamaşaçıların girişlərini tənzimlədi və təhlükəsizlik tədbirləri ilə izdihamın qarşısını aldı. 3000 maşınlıq park yeri olan Yenikapı İSPARK isə normal qiymət tarifini tətbiq edib.

Təşkilatçı Taylan Özcan, tamaşaçıların narahat olmaması üçün 1000 nəfərlik əlavə heyət cəlb etdiklərini bildirib.

Lopez bu gün Özbəkistanda, bazar günü isə Qazaxıstanda konsert verəcək. Özbəkistandakı VIP biletlər 25 min TL, Qazaxıstandakı isə 38 min TL-ə satılır. Ermənistan konsertində isə ən bahalı bilet 19 min TL idi. Ermənistan hökumətinin bu konsert üçün 6 milyon dollar xərcləməsi mübahisələrə səbəb olmuşdu.

Cennifer Lopezin səhnədə geyindiyi aynayla örtülmüş çəkmə də sosial mediada maraq doğurdu. Bu çəkmənin xüsusi dizayn olduğu bildirilib.

Altı illik fasilədən sonra İstanbula gələn Lopezin konsertinə bir çox tanınmış simalar qatıldı. Kanal D-nin ulduzları, o cümlədən Lopezə bənzərliyi ilə seçilən Sahra Şaş və yeni sima Cemre Baysel, konsertdən zövq alıb.

Lopez səhnədən düşən kimi otağına getmədi, bütün heyəti ilə qısa gündəlik iclas keçirdi və sonra barbekü məclisi təşkil etdi.

Səhnədə tez-tez tamaşaçılarla dialoq quran Lopez deyib:

"İstanbul uzun illərdir bu qədər gözəl gecə keçirməmişdi. Yenidən burada olmaqdan çox xoşbəxtəm. Hazırsız? Oxuyacağıq, rəqs edəcəyik. İstanbulda rəqs etməyi sevirik, kalçanı sallamağa hazırsız?".

Konsertdən sonra Melis Sezen, Ebru Şahin, Kubilay Aka-Hafsanur Sancaktutan və Hande Doğandemir kimi məşhurlar kulisdə Lopez ilə görüşmək istəyiblər. Lopez, hər biri 118 min TL olan biletləri alan 20 nəfərlə görüşdü. Bilet gəlirlərini TEMA Vəqfinə bağışlanacağı müğənnini sevindirdi. Görüş zamanı yalnız şəkil çəkdirməyi rədd etdi, amma hamı ilə tək-tək hal-əhval tutdu.

Cennifer Lopezin səhnə kombinasiyalarından sonra, Hadisənin Harbiye Açıq Hava Səhnəsindəki çıxışı gündəmə gəldi. Sosial mediada istifadəçilər, "Hadisə edəndə tənqid olunur, Lopez edəndə alqışlanır. Eyni şeyi etdi," deyə yazaraq Hadisəyə dəstək verdilər.

Turan

## 50 şəhidin əmanəti onun evindədir

"Ən böyük arzum axirətdə onlarla bir yerdə olmaqdır..."

**Ərzurum şəhərində yaşayan 26 yaşlı Merve Tekin, könüllü şəkildə şəhidlərin şəxsi əşyalarını evində xüsusi olaraq yaratdığı bir otaqda qoruyur. İndiyədək 50-dən çox şəhidə məxsus əşya toplayan Tekin, bu əmanətləri böyük diqqətlə saxlayaraq, gənc nəsillərə vətən sevgisi aşılamağı hədəfləyir.**

"Şərq" xəbər verir ki, bir uşaq anası olan Merve Tekinin şəhidlərə olan marağı uşaqlıq illərində başlayıb. Bayrağı görəndə duyğulanan, şəhid xəbərlərindən təsirlənən və babası ilə birgə izlədiyi "Sakarya Fırat" serialından ilham alan Tekin, bu sevgini zamanla sosial layihələrə çevirib. İlk olaraq 2019-cu ildə şəhid Muhammed Ferdi Güntekinin mavi beresini alaraq əmanət toplamağa başlayıb. Şəhidlərə aid uniforma, cüzdan, təsbeh, bere, bəy ayaqqabısı və son geyindikləri köynək kimi şəxsi əşyaları topladığı xüsusi bir otaq yaradıb. O bildirib: "Bu otaq onlara aiddir. Onlar burada yeyər, içər, söhbət edər. Mən də bəzən qapılarını döyüb salam verirəm".



Tekin bildirib ki, hazırda hərbi xidmət keçən qardaşı ona "Bacım, əgər mən də şəhid olsam, o künc mənim olsun" deyib. O, bu əmanətləri gələcəkdə muzeyə deyil, şəhidlərin ailələrinə çatmasını istəyir. Merve Tekinin evi bu gün onlarla şəhidin əşyasına ev sahibliyi edir. Şəhid ailələri ilə sosial media vasitəsilə əlaqə saxladığını deyən Tekin, maddi qazanc gözləmədiyini, sadəcə bu əmanətlərə sahib çıxmaq istədiyini bildirib. Evindəki həmin otağın özü və ailəsi üçün mənəvi mərkəzə çevrildiyini deyən Tekin sözlərinə belə davam edib: "Uşaqkən mənim öz otağım yox idi, amma şəhidlərimə aid bir otağım var. Lazım olsa, mətbəxdə yataram, amma o otağa toxunmaram".

Merve Tekin bu günə qədər şəhidlərin adına Ərzurumda və müxtəlif şəhərlərdə kitabxanalar, dəstəmazxanalar və məktəb qapılarına bəzək işləri həyata keçirib. Gənclərdə milli və mənəvi dəyərləri gücləndirməyi hədəfləyən Tekin deyib: "Vətəni həyat yoldaşınızı, sevgilinizi sevdiyiniz kimi sevin ki, bir vətəniniz olsun".

Şəhid ailələrinin onu bir övlad kimi qəbul etməsindən şərəf duyduğunu bildirən Merve Tekin deyib: "Mən Merve Tekin olaraq yox, şəhidlərin əmanətlərinə sahib çıxan biri kimi xatırlanmaq istəyirəm. Ən böyük arzum, bu dünyada olmasa da, axirətdə onlarla bir yerdə olmaq, onların şəfaətinə nail olmaqdır. Allah nəsib edərsə, bir gün mən də axirət şəhidlərindən biri olmaq istəyirəm".

Turan